28 aprel 2023 №32 (2001)

www.medeniyyet.az

# MƏDƏNİYYƏT

Azərbaycan Respublikası Mədəniyyət Nazirliyinin nəşri

Qəzet 1991-ci ilin yanvarından çıxır

# Yaşı bir əsri haqlayan kinostudiya

## Yüz il ərzində 1500-dən çox film istehsal edilib






2023-cü il Azərbaycanın kino tarixi üçün iki yubileylə əlamətdardır. Bu il Azərbaycanda kinonun yaranmasının 125 illiyi tamam olur. Kino ictimaiyyəti peşə bayramını və həmin yubileyi avqustun 2-də qeyd edəcək.

Bu gün isə daha bir yubiley – Azərbaycanda dövlət statuslu kinostudiyanın yaranmasının 100 illiyi tamam olur. 28 aprel 1923-cü ildə Bakıda Azərbaycan SSR Foto-Kino İdarəsi nəzdində Dövlət kinofabrikinin rəsmi açılışı keçirilib. Bununla indiki "Azərbaycanfilm" kinostudiyasının əsası qoyulub.

Qeyd edək ki, ötən əsrin 20-ci illərinə qədər Azərbaycanda (daha dəqiqi, Bakıda) filmlər əsasən əcnəbilərin qurduğu özəl studiyalar tərəfindən çəkilib. Film istehsalı ilə Pirone qardaşlarının kinofabriki, "Pathe" şirkəti, "Filma" səhmdar cəmiyyəti və başqaları məşğul olurdu.

1920-ci il iyulun 4-də Azərbaycan SSR İnqilab Komitəsinin sədri Nəriman Nərimanov kinematoqrafiya və fotoqrafiya müəssisələrinin milliləşdirilməsi haqqında dekret imzalayıb. Xalq






Maarif Komissarlığının tərkibində İncəsənət Şöbəsi yaradılıb. 1920-ci il dekabrın 20-də Azərbaycan Xalq Maarif Komissarlığı kollegiyasının iclasında "Kinematoqrafiya filmləri fabrikinin açılışı haqqında" qərar qəbul edilib.

Hökumətin (Xalq Komissarları Soveti) 1923-cü il 5 mart tarixli xüsusi dekreti ilə Azərbaycan Foto-Kino İdarəsi (AFKİ) yaradılıb.

Şərq xalqları küçəsi (indiki Azadlıq prospekti) ilə Birja küçəsinin (indiki Üzeyir Hacıbəyli küçəsi) kəsişməsində sovetləşmədən əvvəl "Renessans" restoranı, onunla bir cərgədə müxtəlif anbar binaları yerləşirdi. Həmin restoran və anbar binaları AFKİ-nin ixtiyarına verilib. Bina kinofabrikə uyğun şəkildə dəyişdirilib: restoranın zalı xeyli genişləndirilib, xırda otaqların arakəsmələri götürülüb. Beləliklə, iri zal 36x16 metr sahəsi olan kinopavilyona çevrilib. Həyətdəki limonad zavodu sökülüb və onun yerində plyonka emalı sexi və başqa yardımçı binalar inşa edilib. Xaricdən kino avadanlığı gətirilib. Aprelin 28-də hökumət üzvü Səməd Ağamalıoğlunun və şəhər ictimaiyyəti nümayəndələrinin iştirakı ilə AFKİ nəzdində Dövlət kinofabrikinin açılışı olub.

Kinostudiya müxtəlif illərdə fərqli adlar daşıyıb. 1923-1926-cı illərdə AFKİ-nin I Dövlət Kino Fabriki, 1926-1930-cu illərdə Azdövlətkino (Azərbaycan Foto-Kino Sənaye və Ticarət Birliyi), 1930-1931-ci illərdə "Azərkino", 1932-1933-cü illərdə "Azərfilm" adlanıb.

1934-1935-ci illərdə "Azdövlətkinosənaye", 1935-1938-ci illərdə yenidən "Azərfilm" (Azərbaycan Foto-Kino Sənayesi İdarəsi), 1939-1958-ci illərdə isə Bakı kinostudiyası adlanıb. 1958-ci ildən "Azərbaycanfilm" kinostudiyası adlanır. 1960-cı ildən kinostudiyaya Cəfər Cabbarlının adı verilib.

Kinostudiyanın hazırkı binasının təməli 1951-ci ildə qoyulub və 15 ildən sonra istifadəyə verilib. 1966-cı ildə burada kino istehsalına başlanılıb.

Ötən yüz ildə fərqli adlar daşımış kinostudiyada ümumilikdə 1500-dən çox tammetrajlı və qısametrajlı bədii, sənədli, animasiya filmləri, həmçinin yüzlərlə xronikal material və süjetlər istehsal edilib.

# Sərhəd məntəqəsinin qurulması ölkəmizin suveren hüququdur

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev aprelin 27-də Fransa Respublikasının Avropa və xarici işlər naziri Ketrin Kolonnanı qəbul edib.



Prezident bildirib ki, Azərbaycan-Ermənistan sərhədində, Laçın-Xankəndi yolunun başlanğıcında sərhəd-buraxılış məntəqəsinin qurulması ölkəmizin suveren hüququ və ərazi bütövlüyümüzün təmin olunmasının ifadəsidir.

səh. 2

# Ümummilli liderin 100 illiyinə həsr olunmuş konsert proqramları

Mədəniyyət müəssisələrində, bədii təhsil ocaqlarında "Heydər Əliyev İli" çərçivəsində müxtəlif tədbirlər keçirilir, musiqi axşamları təşkil olunur.

Bakı Şəhər Mədəniyyət Baş İdarəsinin tabeliyində fəaliyyət göstərən Tofiq Quliyev adına 12 nömrəli onbirillik Musiqi məktəbi Ümummilli lider Heydər Əliyevin 100 illik yubileyinə həsr olunmuş konsert proqramı təqdim edib.

M.Maqomayev adına Azərbaycan Dövlət Akademik Filarmoniyasında gerçəkləşən konsertdə məktəbin kollektivini dirijor Mustafa Mehmandarovun idarəçiliyi ilə Ü.Hacıbəyli adına Azərbaycan Dövlət Simfonik Orkestri müşayiət edib.



Təhsil ocağının respublika və beynəlxalq müsabiqələrdə uğur qazanmış şagirdləri və III respublika müsabiqəsinin qalibi olmuş böyük xor kollektivi F.Mendelson, V.Motsart, A.Skryabin, T.Bakıxanov, V.Adıgözəlov, M.Balakirev, K.Sen-Sans, C.Gerşvin, A.Məlikov və L.Vaynşteynin əsərlərini ifa edib.

Ulu öndərin əziz xatirəsinə ehtiramın ifadəsi kimi səslənən əsərlər musiqisevərlər tərəfindən alqışlarla qarşılanıb.

davamı səh. 3-də

# Milli Muğam Müsabiqəsinin seçim turları yekunlaşıb

Xəbər verdiyimiz kimi, Heydər Əliyev Fondu və Mədəniyyət Nazirliyinin təşkilatçılığı, Elm və Təhsil Nazirliyi və Azərbaycan Milli Konservatoriyasının (AMK) dəstəyi ilə Milli Muğam Müsabiqəsi keçirilir.




Müsabiqə xanəndə və instrumental ifaçılıq kateqoriyaları üzrə təşkil olunub. Seçim turuna 41 xanəndə, 18 instrumental ifaçı olmaqla ümumilikdə 59 nəfər qatılıb. Onlardan xanəndə ixtisası üzrə 20 nəfər, instrumental ifaçılıq üzrə isə 18 nəfər müsabiqənin I turunda iştirak edib.

Aprelin 24-25-də AMK-da müsabiqənin ilk turu üzrə dinləmələr olub. İki gün davam edən dinləmələrdən sonra hər kateqoriya üzrə 8 nəfər ikinci tura keçib.

davamı səh. 2-də

# Durnaların vədəsiz köçü kimi...

Dünyanın harasında baş verməsindən, hansı xalqın, dövlətin qələbəsi və ya məğlubiyyəti ilə nəticələnməsindən asılı olmayaraq, müharibə dəhşət, fəlakət və insanlığa divan tutan bəladır. Bu, ağıllı, müdrik, gözəl, zərif, zövqlü, intellektli – bir sözlə, yer üzünün əşrəfi sayılan insanın öz başına gətirdiyi müsibətdir.



Bu kimi duyğu və düşüncələrin insan zəkasını sınağa çəkdiyi növbəti səhnə işi tamaşaçıları bir daha öz həqiqətinə inandırdı: ana torpağın qucağında bütün yaradılışa yer və sevgi yetəcəksə, bu qırğınlar nəyə lazımdır?

Ağır suala zaman-zaman əsərlərində yanığı ilə cavab verməyə çalışan dünya şöhrətli qırğız yazıçı Çingiz Aytmatovun (1928-2008) "Ana tarla" əsəri fərqli və maraqlı səhnə həllində teatrsevərləri bir araya gətirdi.

Aprelin 26-da Bakı Bələdiyyə Teatrının Beynəlxalq Türk Mədəniyyəti və İrsi Fondunun təşəbbüsü ilə səhnələşdirdiyi "Ana tarla" tamaşasının premyerası oldu. Səhnə əsəri Ümummilli lider Heydər Əliyevin anadan olmasının 100 illik yubileyi çərçivəsində hazırlanıb.

davamı səh. 5-də

# "Sürrealizm mənəm"



Heydər Əliyev Mərkəzində XX əsr incəsənətinin ən məşhur simalarından biri – ispaniyalı rəssam, sürrealist rəngkar, qrafik, heykəltəraş, rejissor Salvador Dalinin (1904-1989) əsərlərindən ibarət "Sürrealizm mənəm" adlı sərgi açılıb.

Salvador Dalinin Azərbaycanda ilk dəfə təqdim olunan əsərləri sırasında rəssamın qrafik əsərləri, şüşədən və bürüncdən hazırlanan heykəltəraşlıq nümunələri, eləcə də "canlı kətan"ları xatırladan multimedia yer alıb.

səh. 8

# Bakıda növbəti Formula 1 həyəcanı

## 100 ölkədən azarkeşlər gəlib...

28-30 aprel tarixlərində Bakıda növbəti Formula 1 yarışları keçiriləcək. Azərbaycan paytaxtı yeddinci dəfə dünyanın ən həyəcanverici və populyar avtoidman yarışına ev sahibliyi edir.

Bu dəfə yarışı rekord sayda – dünyanın 100-dən çox ölkəsindən azarkeşlər izləyəcək. Bakı Şəhər Halqası Əməliyyat Şirkətinin (BŞH) məlumatına görə, "Gözlənilməzə hazır ol" şüarı ilə keçirilən 2023 Formula 1 Azərbaycan Qran-prisinin 12 tribunasının bütün biletləri satılıb.

Azərbaycan Qran-prisi bu il həm trekdə, həm də trekdən kənarda azarkeşlərə coşqu və əyləncə vəd edir. Onlar üç gün davam edəcək möhtəşəm mübarizə, yüksək rəqabət şəraitində keçəcək yarışdan sonra Dənizkənarı bulvardakı böyük səhnədə DJ Don Diablo və DJ Hardwell konsertlərindən də zövq alacaqlar.




Formula 1 Azərbaycan Qran-prisinin cədvəli isə belədir: 28 aprel – birinci məşq (13:30-14:30); təsnifat (17:00-18:00); 29 aprel – ikinci məşq (13:30-14:30) və ya sprint üçün təsnifat; sprint (15:30); 30 aprel – yürüş (15:00).

Uşaq İncəsənət Festivalının birinci mərhələsi davam edir



səh. 2

Kitabxanalarda avtomatlaşdırılmış informasiya sisteminin tətbiqi

MKS-lər üçün treninq keçirilir

səh. 3



"Mədəni irsimizi tanıyaq, tanıdaq və birgə qoruyaq"

səh. 4

## “Heydər Əliyevin 100 illiyi (1923-2023)” yubiley medalı ilə bağlı qanun qüvvəyə minib



Xəbər verdiyimiz kimi, Azərbaycan Respublikasının Milli Məclisi aprelin 11-də “Heydər Əliyevin 100 illiyi (1923-2023)” Azərbaycan Respublikasının yubiley medalının təsis edilməsi ilə əlaqədar “Azərbaycan Respublikasının orden və medallarının təsis edilməsi haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə qanun qəbul edib. Qanun aprelin 26-da Azərbaycan Respublikasının Prezidenti tərəfindən təsdiq olunaraq qüvvəyə minib.

“Azərbaycan Respublikasının orden və medallarının təsis edilməsi haqqında” qanunun 2-ci maddəsinə “Heydər Əliyevin 100 illiyi (1923-2023)” yubiley medalı ilə bağlı yeni hissə əlavə edilib.

Sözügedən qanunla “Heydər Əliyevin 100 illiyi (1923-2023)” Azərbaycan Respublikasının yubiley medalı haqqında Əsasnamə” də təsdiq edilib.

Əsasnamədə qeyd olunur ki, “Heydər Əliyevin 100 illiyi (1923-2023)” yubiley medalı Azərbaycan vətəndaşlarına və əcnəbilərə Heydər Əliyev irsinin tədqiqində və təbliğində xüsusi xidmətlərinə görə; Azərbaycan Respublikasının dövlət quruculuğunda, o cümlədən milli azadlıq hərəkatında xüsusi xidmətlərinə görə; azərbaycançılıq ideyasının həyata keçirilməsində, dünya azərbaycanlılarının həmrəyliyinin möhkəmləndirilməsində xidmətlərinə görə; sülhün və xalqlar arasında dostluğun möhkəmləndirilməsində və beynəlxalq əməkdaşlığın inkişafında xidmətlərinə görə; Azərbaycan Respublikasının dövlət müstəqilliyinin qorunub saxlanılmasına və inkişafına, Azərbaycanın tərəqqisinə və şöhrətinin artmasına töhfə verən xidmətlərinə görə; Azərbaycan Respublikasının sosial-iqtisadi, elmi-texniki və mədəni inkişafında xidmətlərinə görə; dövlət idarəçiliyində, dövlət qulluğunda və ictimai-siyasi sahədə səmərəli fəaliyyətinə görə verilir.

Həmçinin yubiley medalının təsviri təsdiq edilib.

## Urxan Ələkbərov “Şərəf” ordeni ilə təltif olunub

Azərbaycan Respublikasında elm və təhsilin inkişafında uzunmüddətli səmərəli fəaliyyətinə görə Urxan Kazım oğlu Ələkbərov “Şərəf” ordeni ilə təltif edilib.

Prezident İlham Əliyev aprelin 27-də bununla bağlı sərəncam imzalayıb.

Qeyd edək ki, aprelin 28-də Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasının rektoru, biologiya elmləri doktoru, professor, AMEA-nın həqiqi üzvü Urxan Ələkbərovun 80 yaşı tamam olur.

Akademik Urxan Ələkbərovu yubileyi və yüksək dövlət təltifi münasibətilə təbrik edirik.

## İkinci Dünya müharibəsində ön və arxa cəbhədə fədakarlığa görə

### Ölkəmizdə 1941–1945-ci illər müharibəsinin 57 veteranı qalıb

Prezident İlham Əliyev aprelin 26-da İkinci Dünya müharibəsində Qələbənin 78-ci ildönümü ilə əlaqədar müharibədə iştirak etmiş şəxslərə, həlak olmuş və ya sonralar vəfat etmiş döyüşçülərin dul arvadlarına, arxa cəbhədə fədakar əməyinə görə orden və medallarla təltif edilmiş şəxslərə birdəfəlik maddi yardım verilməsi haqqında sərəncam imzalayıb.

Sərəncama əsasən,1941–1945-ci illərdə müharibədə iştirak etmiş şəxslərə 1 500 manat məbləğində, müharibədə həlak olmuş və ya sonralar vəfat etmiş döyüşçülərin dul arvadlarına, həmin dövrdə arxa cəbhədə fədakar əməyinə görə orden və medallarla təltif edilmiş şəxslərə, müharibə illərində döyüş cəbhələrinin arxa hüdudları, yaxud döyüşən donanmaların əməliyyat zonaları daxilində ordunun və donanmanın mənafeyi üçün tapşırıqları yerinə yetirmiş xüsusi birləşmələrin işçilərinə, Leninqrad şəhərinin müdafiəsinə görə müvafiq medal və döş nişanı ilə təltif edilmiş şəxslərə, habelə Leninqrad şəhərinin mühasirəsi iştirakçılarına 750 manat məbləğində birdəfəlik maddi yardım veriləcək.

Bu məqsədlə Prezidentin ehtiyat fondundan 2,9 milyon manat vəsait ayrılıb.

Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinə birdəfəlik maddi yardımın nəzərdə tutulmuş şəxslərə ödənilməsini təmin etmək tapşırılıb.

Nazirlikdən bildirilib ki, II Dünya müharibəsinə dair birdəfəlik ödəmə ümumilikdə 3729 şəxsə şamil olunacaq. O cümlədən İkinci Dünya müharibəsinin iştirakçısı olmuş 57 nəfərin hər birinə 1500 manat məbləğində birdəfəlik yardım ödəniləcək.

## Mədəniyyət Nazirliyi karyera sərgisində iştirak edib

Aprelin 27-də ADA Universitetində tələbələrə iş və karyera imkanları təklif edən sərgi keçirilib.



Sərginin məqsədi tələbə və məzunları bir araya toplamaqla birbaşa qurum nümayəndələri və İnsan kapitalının idarə olunması şöbəsi ilə əlaqələndirmək, onların bacarıqlarını inkişaf etdirməkdir.

Tələbələrə müxtəlif karyera imkanları, qısamüddətli təlimlər, könüllülük, eləcə də “Yay məktəbləri”ndə iştirak imkanı təklif edən, 130-a yaxın qurumun təmsil olunduğu sərgidə Mədəniyyət Nazirliyi də iştirak edib.

Bildirək ki, nazirlik gənclərə dəstək naminə bir çox universitetlərlə aktiv əməkdaşlıq edərək tələbələrə gələcək karyeraları üçün faydalı biliklər qazandırmaq, onların bacarıqlarını inkişaf etdirmək və real iş təcrübəsi qazanmalarında yaxından iştirak edir.

Karyera sərgisində tələbələr nazirliyin yeni yaradılmış “Mədəniyyət Könüllüləri” İctimai Birliyinə böyük maraq göstərib, qeydiyyatdan keçərək üzv olublar.

# Laçın-Xankəndi yolunda sərhəd məntəqəsinin qurulması ölkəmizin suveren hüququdur

### “Ermənistan Laçın dəhlizindən sui-istifadə edərək Qarabağa silah-sursat daşınmasını həyata keçirirdi”

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev aprelin 27-də Fransa Respublikasının Avropa və xarici işlər naziri Ketrin Kolonnanı qəbul edib.

Prezident İlham Əliyev Azərbaycan-Fransa əlaqələrinin perspektivləri ilə bağlı geniş fikir mübadiləsi aparılmasının zəruriliyini bildirərək Ketrin Kolonnanın ölkəmizə səfəri zamanı bir çox məsələlər ətrafında hərtərəfli müzakirələrin keçiriləcəyinə əminliyini ifadə edib, bunun gələcək əməkdaşlıq üçün faydalı ola biləcəyini vurğulayıb. Dövlətimizin başçısı əlaqələrin perspektivləri ilə bağlı fikir mübadiləsinin növbəti mərhələ üçün yol xəritəsinin tərtib edilməsi baxımından önəmli olduğunu bildirib.

Azərbaycan Prezidenti ikitərəfli münasibətlərin gündəliyinin həmişə çox geniş olduğunu deyib, siyasi, iqtisadi, enerji, nəqliyyat sahələrində və digər sahələrdə əməkdaşlığın yaxşı tarixə malik olduğunu qeyd edib.

Prezident İlham Əliyev Fransanın Avropa və xarici işlər nazirinin regiona səfər etdiyini vurğulayaraq bu çərçivədə eyni zamanda regional əməkdaşlıq və regional təhlükəsizlik məsələlərinin də müzakirə ediləcəyinə ümidvar olduğunu bildirib.

Dövlətimizin başçısı 44 günlük Vətən müharibəsi başa çatandan dərhal sonra məhz ölkəmizin Ermənistanla qarşılıqlı şəkildə bir-birinin ərazi bütövlüyünü və suverenliyini tanımaqla sülh müqaviləsi imzalamaq təklifini irəli sürdüyünü və bunun üçün rəsmi İrəvana 5 prinsip təqdim etdiyini vurğulayıb.

Prezident İlham Əliyev bildirib ki, 2020-ci il noyabrın 10-da Üçtərəfli bəyanatın imzalanmasından və 44 günlük Vətən müharibəsinin başa çatmasından sonra Ermənistan öz üzərinə düşən öhdəliklərini yerinə yetirmir. Ermənistan Naxçıvanla dəhlizin yaradılmasına imkan vermir, öz qoşunlarını Rusiya sülhməramlılarının müvəqqəti yerləşdirildiyi Azərbaycan ərazilərindən çıxarmır və Laçın dəhlizindən sui-istifadə edərək Qarabağa silah-sursat və digər hərbi təyinatlı məhsulların daşınmasını həyata keçirirdi.



Prezident Azərbaycan-Ermənistan sərhədində, Laçın-Xankəndi yolunun başlanğıcında sərhəd-buraxılış məntəqəsinin qurulmasını ölkəmizin suveren hüququ və ərazi bütövlüyümüzün təmin olunmasının ifadəsi olduğunu qeyd edib.

Ketrin Kolonna Fransa Prezidenti Emmanuel Makronun salamlarını dövlətimizin başçısına çatdırıb. Vurğulayıb ki, Emmanuel Makron Azərbaycan Prezidenti ilə açıq və mütəmadi əlaqələrə çox önəm verir.

Prezident İlham Əliyev salamlara görə minnətdarlığını bildirib, onun da salamlarını Emmanuel Makrona çatdırmağı xahiş edib.

Ketrin Kolonna bildirib ki, Fransa Azərbaycanda və ümumiyyətlə, Cənubi Qafqaz regionunda sülhün, iqtisadi və sosial inkişafın mövcud olmasını istəyir və ölkəsinin məqsədi həmişə bundan ibarət olub. Qonaq Fransanın ikitərəfli əlaqələrə, eyni zamanda, Avropa İttifaqı çərçivəsində əlaqələrə böyük önəm verdiyini bildirərək bu istiqamətdə geniş potensialın mövcud olduğunu deyib.

Görüşdə qarşılıqlı maraq doğuran məsələlər ətrafında fikir mübadiləsi aparılıb.

***

Azərbaycan heç vaxt Fransa ilə münasibətlərin gərginləşməsinin səbəbkarı olmayıb, hər zaman bu münasibətlərin müsbət müstəvidə inkişafının tərəfdarı olub, buna səylər göstərib.

Azərbaycanın xarici işlər naziri Ceyhun Bayramov bu sözləri Fransanın Avropa və xarici işlər naziri Ketrin Kolonna ilə birgə mətbuat konfransında deyib.

Qeyd edək ki, aprelin 27-də nazirlərin təkbətək və nümayəndə heyətlərinin iştirakı ilə geniş tərkibdə görüşləri olub.

XİN başçısı qeyd edib ki, münasibətlərdə fikir ayrılıqları olan zamanda belə Azərbaycan təmaslardan çəkinməyib, təmaslar intensiv formada davam edib: “Biz bu cür təmaslara hər zaman açığıq. Bu müstəvidə xanım Ketrin Kolonnanın ölkəmizə səfərini müsbət qiymətləndiririk”.

“Regionda jestlər göstərmək lazımdır, bu jestlər sülh prosesini qidalandıracaq”, – bunu isə fransalı nazir deyib.

“Təmaslarımızda da bildirmişik ki, sülh danışıqlarını ilhamlandırmaq, təşviq etmək istəyirik. Biz istəmirik ki, tərəflər, xalqlar əzab çəksin. Sülh prosesi qətiyyətə, iradəyə əsaslanmalıdır. İtkin düşən şəxslər, qaçqınların geri qayıtması kimi məsələlərə cavablar sülh müqaviləsində tapılacaq”, – deyə Ketrin Kolonna bildirib.

Qeyd edək ki, aprelin 27-də Azərbaycana səfərini başa vuran Ketrin Kolonna Ermənistana gedib.

# Uşaq İncəsənət Festivalının birinci mərhələsi

### Bölgələrdə müxtəlif nominasiyalar üzrə dinləmələr aparılır

Ümummilli lider Heydər Əliyevin 100 illik yubileyi münasibətilə Mədəniyyət Nazirliyi, Elm və Təhsil Nazirliyi və Heydər Əliyev Mərkəzinin birgə təşkil etdiyi Uşaq İncəsənət Festivalının birinci mərhələsi davam edir.



Biləsuvar RMİ-nin əhatə etdiyi Biləsuvar, Salyan, Neftçala və Cəbrayıl rayonları üzrə ümumilikdə 3 məntəqədə keçirilən festivalda iştirakçılar piano ifaçılığı, klassik simli alətlər, xalq çalğı alətləri, caz ifaçılığı, rəssamlıq, bədii qiraət və digər nominasiyalarda öz məharətlərini göstərirlər.

Qeyd edək ki, festivala Biləsuvardan 65, Salyandan 44, Cəbrayıldan 14, Neftçaladan 44 nəfər qatılıb.

***

Xaçmaz RMİ-nin əhatə etdiyi Xaçmaz, Qusar, Quba, Şabran və Siyəzən rayonlarında yaşayan uşaqların çıxışlarını bölgənin peşəkar incəsənət ustalarından ibarət münsiflər heyəti qiymətləndirir. Festivalın birinci mərhələsində şimal bölgəsindən bu günədək 1600-dən çox uşaq iştirak edib.

***

Lənkəran RMİ üzrə Lənkəran şəhəri, Astara və Lerik rayonlarından ümumilikdə 5 məntəqədə keçirilən festivalın birinci mərhələsində iştirakçılar aktyorluq, dekorativ-tətbiqi sənət, rəssamlıq, bədii qiraət, solo milli rəqs və solo müasir rəqs nominasiyalarında istedadlarını nümayiş etdirirlər. Festivala Lənkərandan 400, Astaradan 101, Lerikdən 235 nəfər qatılıb.

***



Şəmkir RMİ-nin tabeliyində fəaliyyət göstərən 8 müəssisədə piano ifaçılığı, klassik simli alətlər, klassik nəfəs alətləri, Azərbaycan xalq çalğı alətləri, akademik vokal, xanəndəlik sənəti, aşıq sənəti xor, solo milli rəqs, solo müasir rəqs, bədii qiraət, dekorativ-tətbiqi sənət, rəssamlıq, rəqəmsal incəsənət nominasiyaları üzrə ümumilikdə 229 nəfər qeydiyyatdan keçib. Aprelin 25, 26 və 27-də Şəmkir, Gədəbəy, Göygöl və Daşkəsən rayonlarında müəyyən olunmuş məntəqələrdə iştirakçıların çıxışları təqdim edilib. Çıxışlar mayın 4-dək davam edəcək.

***

Şəki RMİ-nin tabeliyində fəaliyyət göstərən 9 müəssisədə piano ifaçılığı, solo milli rəqs, hekayəçilik, bədii qiraət, aktyor sənəti və solo müasir rəqs nominasiyaları üzrə fərdi qaydada 190 nəfər, milli rəqs ansamblı nominasiyası üzrə isə 2 rəqs qrupu münsiflər heyətinin önünə çıxıb.

***



Ağdaş RMİ-nin əhatə etdiyi Ağdaş, Göyçay, Ucar və Zərdab rayonları üzrə festivalın birinci mərhələsi 8 məntəqədə keçirilir. İştirakçılar piano ifaçılığı, solo milli rəqs, milli rəqs ansamblı, solo müasir rəqs, müasir rəqs ansamblı nominasiyaları üzrə bacarıqlarını ortaya qoyurlar.

Xatırladaq ki, festival 21 nominasiyada üç yaş qrupu (6-9 yaş, 10-13 yaş və 14-17 yaş) üzrə keçirilir.

## Milli Muğam Müsabiqəsinin seçim turları yekunlaşıb

### Qaliblər aprelin 30-da elan olunacaq




əvvəli səh. 1-də

Aprelin 26-da Milli Muğam Müsabiqəsinin ikinci seçim turu keçirilib. Münsiflər xanəndə və instrumental ifaçılıq kateqoriyaları üzrə iştirakçıların ifalarını dinləyiblər.

Verilən məlumata görə, qaliblər aprelin 30-da elan olunacaq və müsabiqənin yekun konserti keçiriləcək.

Hər iki kateqoriya üzrə münsiflər heyətinin sədri AMK-nın rektoru Xalq artisti Siyavuş Kərimidir. İnstrumental ifaçılıq üzrə münsiflər heyətində Xalq artistləri Fəxrəddin Dadaşov, Möhlət Müslümov, Əməkdar artistlər Şirzad Fətəliyev və Çinarə Heydərova, xanəndəlik üzrə münsiflər heyətində isə Xalq artistləri Səkinə İsmayılova, Mənsum İbrahimov, Zabit Nəbizadə, Əməkdar artist Qəzənfər Abbasov yer alıblar.

Müsabiqənin qalibləri – xanəndə və instrumental ifa üzrə birinci yeri tutan iştirakçılar ölkəmizi “Muğam aləmi” 6-cı Beynəlxalq Muğam Festivalında təmsil edəcəklər.

# Azərbaycan XİN Paşinyanın iddialarına cavab verib

Azərbaycan Xarici İşlər Nazirliyi (XİN) Ermənistanla sərhəddə nəzarət-buraxılış məntəqəsi təsis edilməsi ilə bağlı bu ölkənin baş naziri Nikol Paşinyanın 27 aprel tarixində hökumət iclasında çıxışı zamanı səsləndirdiyi iddialara cavab verib.

“Ermənistanın baş naziri Nikol Paşinyanın 27 aprel tarixində hökumət iclasında çıxışı zamanı ölkəmizin Azərbaycan-Ermənistan sərhədində nəzarət-buraxılış məntəqəsi təsis etməsi ilə bağlı səsləndirdiyi cəfəng iddiaları qətiyyətlə rədd edirik. Azərbaycanın daxili işi olan öz suveren ərazisində sərhəd nəzarət-buraxılış məntəqəsi təsis etməsi məsələsinə Ermənistan tərəfinin hər hansı bir müdaxiləsi Azərbaycanın suverenliyi və ərazi bütövlüyünə qarşı iddiadır və Ermənistan tərəfindən Praqa və Soçidə öz üzərlərinə götürdükləri öhdəliklərə, eləcə də beynəlxalq hüququn bütün norma və prinsiplərinə ziddir. Ermənistan tərəfinin bu kimi bəyanatları bölgədə sülh və əmin-amanlığa töhfə verməməklə yanaşı, qəsdən gərginliyin artırılması məqsədi daşıyır”, – deyə XİN-in bəyanatında bildirilir.

Qeyd olunur ki, sərhəddən giriş-çıxış rejimini tənzimləyəcək bu məntəqənin təsis edilməsinin yolun bağlanması kimi qiymətləndirilməsi tamamilə yanlışdır. Ermənistan hökumət başçısının iddialarının əksinə, Üçtərəfli bəyanata əsasən, Azərbaycanın Laçın yolu üzərində səlahiyyətləri və suveren hüquqları mövcuddur: “Azərbaycan hər zaman olduğu kimi, öz öhdəlikləri çərçivəsində Laçın-Xankəndi yolunda hərəkət edən vətəndaşların, nəqliyyat vasitələri və yüklərin təhlükəsizliyinə zəmanət verir və bu istiqamətdə müvafiq tədbirləri davam etdirəcək”.

# Əqli mülkiyyət – innovasiya və yaradıcılıq

## Beynəlxalq Əqli Mülkiyyət Günü münasibətilə konfrans keçirilib



Aprelin 26-sı dünyada Beynəlxalq Əqli Mülkiyyət Günü kimi qeyd edilir. Bu gün Dünya Əqli Mülkiyyət Təşkilatı tərəfindən 2000-ci ildə təsis edilib.

Builki Beynəlxalq Əqli Mülkiyyət Günü "Qadınlar və əqli mülkiyyət: innovasiya və yaradıcılığın sürətləndirilməsi" mövzusuna həsr edilib. Bu mövzu dünya ictimaiyyətinin diqqətini qadın ixtiraçıların, yaradıcıların və sahibkarların fəaliyyətinə yönəldir.

Əlamətdar gün münasibətilə aprelin 26-da Əqli Mülkiyyət Agentliyi və Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin birgə təşkilatçılığı ilə "Qadınlar və əqli mülkiyyət. İnnovasiya və yaradıcılıq" mövzusunda konfrans keçirilib.

Konfransı giriş sözü ilə açan Əqli Mülkiyyət Agentliyi İdarə heyətinin sədri Kamran İmanov Beynəlxalq Əqli Mülkiyyət Gününün 2001-ci ildən başlayaraq Azərbaycanda da qeyd edildiyini diqqətə çatdırıb. Bildirib ki, bu istiqamətdə keçirilən tədbirlərin əsas məqsədi əqli mülkiyyət, əqli mülkiyyət mədəniyyətinin formalaşdırılmasına dəstək vermək, biliklər cəmiyyətində əqli mülkiyyətin kreativlik və yenilikçilik amillərinin stimullaşdırılmasında əvəzedilməz əhəmiyyətini göstərməkdir.

Kamran İmanov bildirib ki, Dünya İqtisadi Forumunun sonuncu Qlobal Rəqabətqabiliyyətlilik İndeksi üzrə hesabatına görə, Azərbaycan 141 ölkə arasında "əqli mülkiyyətin qorunması" göstəricisi üzrə 30-cu, MDB dövlətləri arasında isə 1-ci yeri tutur.

Onun sözlərinə görə, son illər əqli mülkiyyət sahəsində aparılan məqsədyönlü işlər ölkəmizin beynəlxalq reytinqlərdə mövqelərinin möhkəmləndirilməsində əhəmiyyətli rol oynayır. 132 ölkəni əhatə edən "Qlobal İnnovasiya İndeksi (QİI) 2022" hesabatında Azərbaycan "İnnovativ resurslar" alt indeksi üzrə reytinqdə 79-cu yeri tutur. "Tədqiqat və inkişaf" inteqral göstəricisində ölkəmiz mövqeyini yaxşılaşdıraraq 76-cı yerə yüksəlib.

2022-ci ildə daha bir beynəlxalq təşkilat – "Mülkiyyət Hüquqları Alyansı" ("The Property Rights Alliance") tərəfindən hazırlanmış 129 ölkəni əhatə edən hesabatda Azərbaycan reytinqdə 60-cı yeri tutaraq Ermənistan (63), Gürcüstan (72), Qazaxıstan (75), Rusiya (85), Moldova (95) və Ukraynanı (105) qabaqlayıb.

Konfransda Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin sədri Bahar Muradova, mədəniyyət naziri Adil Kərimli, Milli Məclisin Ailə, qadın və uşaq məsələləri komitəsinin sədri Hicran Hüseynova və başqaları tədbirin əhəmiyyətini vurğulayıb, mövzu ilə bağlı fikirlərini bölüşüblər.

Sonra Kamran İmanovun "Qadınlar və əqli mülkiyyət. İnnovasiya və yaradıcılıq", Əqli Mülkiyyət Agentliyinin şöbə müdiri Nadirə Bədəlbəylinin "Qadın və əqli mülkiyyət: qadın yazıçı, şair və bəstəkar", agentliyin tabeliyində olan Patent və Əmtəə Nişanlarının Ekspertizası Mərkəzinin direktoru müavini Nərgiz Hacıyevanın "Qadın və əqli mülkiyyət: sahibkar qadının fəaliyyətində əmtəə nişanının rolu", Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin Aparat rəhbəri Ceyran Rəhmətullayevanın "Qadın və əqli mülkiyyət: qadın yaradıcılığının inkişafında dövlətin və ailənin rolu" və digər iştirakçıların məruzələri dinlənilib.

# Kitabxanalarda avtomatlaşdırılmış informasiya sisteminin tətbiqi

## MKS-lər üçün treninqlər təşkil edilib

Mədəniyyət Nazirliyi və Milli Kitabxananın birgə təşkilatçılığı ilə 26-29 aprel tarixlərində nazirliyin tabeliyində olan kitabxanalarda "Koha" Avtomatlaşdırılmış Kitabxana İnformasiya Sisteminin (AKİS) tətbiqi ilə bağlı treninqlər keçirilir.

Aprelin 26-da Milli Kitabxanada treninqin açılış mərasimi olub. Milli Kitabxananın direktoru professor Kərim Tahirov qeyd edib ki, Mədəniyyət Nazirliyinin əmri ilə mərkəzləşdirilmiş kitabxana sistemləri (MKS) yeni avtomatlaşdırılmış idarəetmə sisteminə keçir. Bu prosesin həyata keçirilməsi 3 mərhələdə nəzərdə tutulur: elektron kataloqun yaradılması; elektron kitabxananın yaradılması; audiokitab bazasının yaradılması.

Milli Kitabxanada Türkiyədən gələn mütəxəssislərin iştirakı ilə treninqlər keçirilir. Treninqlərə bu mərhələdə Bakı şəhəri üzrə, eləcə də Gəncə, Qax, Ağdaş, Quba MKS-lərin əməkdaşları cəlb olunub.

Açılış zamanı "Koha" AKİS haqqında müzakirələr olub, sistemin üstünlükləri haqqında fikirlər söylənilib. Treninqdə kitabxana əməkdaşlarına təcrübi məşğələlər və təlimlər keçirilməsi nəzərdə tutulur.

Qeyd edək ki, 2022-ci ilin dekabrında Azərbaycan Milli Kitabxanasının bir qrup mütəxəssisi Türkiyə Mədəniyyət və Turizm Nazirliyi kitabxanalarının təcrübəsini öyrənmək və müvafiq treninqlərdə iştirak etmək üçün Ankarada olub. Türkiyə Milli Kitabxanasında "Koha" AKİS ilə əlaqədar Azərbaycan Milli Kitabxanasının mütəxəssislərinə təcrübi məşğələlər keçirilib.



Bundan öncə isə, 2021-ci ilin iyulunda Mədəniyyət Nazirliyində Türkiyə Mədəniyyət və Turizm Nazirliyinin kitabxana və nəşriyyat işi üzrə əməkdaşlarından ibarət nümayəndə heyəti ilə görüşdə "Koha" sisteminin öyrənilməsi və ölkəmizdə tətbiqi imkanları müzakirə edilib.

"Koha" beynəlxalq miqyasda qəbul edilmiş avtomatlaşdırılmış kitabxana informasiya sistemidir. İlk dəfə 2000-ci ildə "Katipo Communications" tərəfindən Yeni Zelandiyada tətbiq olunub. "Koha" Yeni Zelandiyada aborigenlərin danışdığı maori dilində bəxşiş, ərməğan, töhfə mənası verir.

# "Yeni adlar"da violin axşamı

Mədəniyyət Nazirliyinin ötən ilin yazından həyata keçirdiyi "Yeni adlar" layihəsi maraqlı konsert proqramları ilə davam edir. Müasir Azərbaycan ifaçılıq sənətinin inkişafına, bu sahədə yeni istedadlı nəslin yetişməsində və tanınması məqsədi daşıyan layihə bu il Ulu öndər Heydər Əliyevin 100 illiyinə həsr olunub.

Aprelin 25-də M.Maqomayev adına Azərbaycan Dövlət Akademik Filarmoniyasında layihənin növbəti konserti keçirildi.

Musiqi axşamının tamaşaçıları arasında Prezident Administrasiyası Humanitar siyasət, diaspor, multikulturalizm və dini məsələlər şöbəsinin müdiri Fərəh Əliyeva, Mədəniyyət Nazirliyinin əməkdaşları, mədəniyyət və incəsənət xadimləri, musiqisevərlər və digər qonaqlar iştirak edirdi.




Konsertdə Ü.Hacıbəyli adına Azərbaycan Dövlət Simfonik Orkestrinin (dirijor Orxan Həşimov) müşayiəti ilə respublika və beynəlxalq müsabiqələr laureatları Ümidə Abbasova və Denis Həsənov (hər ikisi violin) çıxış etdilər.

Ümidə Abbasovanın ifasında F.Mendelsonun "Violin və orkestr üçün 18 nömrəli konsert" (mi minor, op.64, 3 hissədə), Denis Həsənovun təqdimatında isə D.Şostakoviçin "Violin və orkestr üçün 1 nömrəli konsert" (lya minor, op.77, 4 hissədə) əsərləri tamaşaçılar tərəfindən alqışlarla qarşılandı.

***

Ümidə Abbasova 1990-cı ildə Bakı şəhərində ziyalı ailəsində anadan olub. 2007-ci ildə Bülbül adına Orta İxtisas Musiqi Məktəbini bitirib. Həmin ildə Ü.Hacıbəyli adına Bakı Musiqi Akademiyasına daxil olub. 2011-ci ildə bakalavr pilləsini, 2013-cü ildə isə magistr pilləsini fərqlənmə diplomları ilə başa vurub. 2012-ci ildən etibarən Bülbül adına Orta İxtisas Musiqi Məktəbində müəllim işləyir.

O, 2011-ci ildə İtaliyada keçirilən Don Vincenzo Vitti adına X beynəlxalq müsabiqədə Qran-pri mükafatına layiq görülüb. 2019-cu ildə Gürcüstanda Vaja Çaçava adına beynəlxalq müsabiqədə iki nominasiya üzrə I yerə və laureat adına layiq görülüb.

Violin ifaçısı Ü.Hacıbəyli, M.Rostropoviç və Qəbələ beynəlxalq musiqi festivallarının, Azərbaycan Bəstəkarlar İttifaqının təşəbbüsü ilə keçirilən plenumların daimi iştirakçısıdır.

***

Denis Həsənov 1994-cü ildə Ukraynanın Luqansk şəhərində anadan olub. 2007-2013-cü illərdə P.İ.Çaykovski adına Moskva Dövlət Konservatoriyasının nəzdində Mərkəzi musiqi məktəbində, 2013-2018-ci illərdə isə həmin konservatoriyada bakalavr və magistr təhsili alıb. İfaçı 2017-ci ildən Sankt-Peterburq Musiqi evinin solisti kimi fəaliyyət göstərir.

Violin ifaçısı 2021-ci ildə İtaliyanın Qorisiya şəhərində Premio Rodolfo Lipizer müsabiqəsində və Sankt-Peterburq violin ifaçılarının birinci beynəlxalq müsabiqəsində xüsusi mükafata layiq görülüb.

Tanınmış musiqiçilərin ustad dərslərində iştirak edən Denis Həsənov 2022-ci ildə İtaliyada rus bəstəkarlarının əsərlərindən ibarət 2 diski işıq üzü görüb.

**Nuraddin**

# Ümummilli liderin 100 illiyinə həsr olunmuş konsert proqramları

*əvvəli səh. 1-də*

Bakı Şəhər Mədəniyyət Baş İdarəsinin 5 nömrəli İncəsənət məktəbində Ulu öndər Heydər Əliyevin 100 illiyinə həsr olunmuş "Muğam dünyamıza səyahət" adlı konsert təşkil olunub.

Tədbirdə əvvəlcə Azərbaycan muğamı haqqında məlumat verilib, muğamın dünya musiqi xəzinəsinin incisi kimi təbliğindən söz açılıb.

Konsert proqramında məktəbin xanəndə ixtisası üzrə müəllimləri Təranə Musayeva və Fərhad Ramazanov "Şur dəsgahı", "Dilkəş təsnifi"ni ifa ediblər. Onları tarda Vüqar Təhməzov, kamançada isə Zaur Zamanzadə müşayiət ediblər.

***





Baş idarənin Rauf Hacıyev adına 15 nömrəli onbirillik Musiqi məktəbi də Ümummilli lider Heydər Əliyevin 100 illiyinə həsr olunmuş konsert təqdim edib.

Müslüm Maqomayev adına Azərbaycan Dövlət Akademik Filarmoniyasında keçirilən konsertdə məktəbin şagirdləri Azərbaycan və Avropa bəstəkarlarının əsərlərini səsləndiriblər. Konsertdə şagirdləri Mustafa Mehmandarovun dirijorluğu ilə Ü.Hacıbəyli adına Azərbaycan Dövlət Simfonik Orkestri müşayiət edib.

# Moskvada Heydər Əliyevin 100 illik yubileyinə həsr olunmuş fotosərgi

Ulu öndər Heydər Əliyevin 100 illik yubileyi çərçivəsində Azərbaycan Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyi və "Azərbaycan Dəmir Yolları" QSC-nin təşəbbüsü, "Rusiya Dəmir Yolları" ASC, Rusiya Nəqliyyat Universiteti və Azərbaycanın Rusiyadakı Səfirliyinin birgə təşkilatçılığı ilə Moskvanın "Kazan" dəmiryolu vağzalının "Çar qülləsi" salonunda fotosərgi açılıb.

Sərgidə Heydər Əliyevin SSRİ Nazirlər Soveti sədrinin birinci müavini vəzifəsində çalışdığı illərdə Baykal-Amur magistralının (BAM) kuratoru olaraq layihənin ərsəyə gəlməsinə verdiyi önəmli töhfələrlə bağlı fotolar nümayiş etdirilir.



Rəqəmsal inkişaf və nəqliyyat naziri Rəşad Nəbiyev açılış mərasimində çıxış edərək bildirib ki, BAM-ın ərsəyə gəlməsində Heydər Əliyevin peşəkar fəaliyyəti ilə yanaşı, şəxsi keyfiyyətləri də böyük rol oynayıb: "Həqiqətən də, relyefi mürəkkəb, iqlimi sərt bir regionda layihənin uğurla inşa edilməsində məhz Heydər Əliyevin diqqəti, həssaslığı və qayğıkeşliyi ilə güclü komanda ruhu formalaşdı. Ulu öndərin rəhbərliyi ilə bütün BAM ailəsi qeyri-mümkün olanı reallığa çevirə bildi. Bu gün sərgilənən fotolarda həmin tarixin ən nadir anları nümayiş etdirilir. Onu da qeyd etmək lazımdır ki, BAM-ın uğur hekayəsində 1975-ci ildən bu regiona işləməyə gəlmiş azərbaycanlı mütəxəssislərin də böyük rolu olub".

Rusiya Prezidentinin köməkçisi İqor Levitin çıxışında Heydər Əliyevin yüksək idarəetmə bacarığı sayəsində BAM-da görülmüş işlərlə bağlı tədbir iştirakçılarına geniş məlumat verib. "9 may 1984-cü ildə Heydər Əliyevin Miroşniçenko yolayrıcında relslərin qovuşduğu hissəyə rəmzi "qızıl yanlığ"ı vurması mərasimində iştirak edən nümayəndə heyətinin üzvü olaraq onun kimi liderlə təmasda olduğum həmin illəri iftixarla xatırlayıram", – deyə o bildirib.

İqor Levitin vurğulayıb ki, 2008-ci ildə BAM-ın Anqoya stansiyasında istifadəyə verilən yeni vağzala Heydər Əliyevin adının verilməsi onun xidmətlərinin böyük minnətdarlıqla yad edilməsinin təzahürüdür.

Azərbaycanın Rusiyadakı səfiri Polad Bülbüloğlu bildirib ki, Amur vilayətinin Tında şəhəri BAM-ın paytaxtı hesab edilən dövrlərdə dəfələrlə orada olub: "BAM-ın tikintisində görkəmli dövlət xadimi Heydər Əliyevin böyük xidmətləri olub. Səfirlikdə Heydər Əliyevin BAM-a səfərlərini əks etdirən xeyli fotoşəkil qorunub saxlanılır".

Daha sonra rəsmilər fotostendlərlə tanış olub, sərgi iştirakçıları ilə fikir mübadiləsi aparıblar.

Sərgi aprelin 30-dək davam edəcək.

Qeyd edək ki, ümumi uzunluğu 4300 kilometr olan BAM-ın tikintisinə 1940-cı ildə başlanılsa da, tikinti işləri təxirə salınıb, 1974-cü ildən layihə yenidən gündəmə gəlib. Layihə çərçivəsində BAM-da 200-dən çox dəmiryolu stansiyası inşa edilib, polad magistral 60-dan çox şəhər və qəsəbəni birləşdirir. BAM 11 çayın üzərindən keçir. Magistral boyunca 10 dəmiryolu tuneli, yüzlərlə körpü tikilib.

# Riad Məmmədovun solo konserti

Moskvada A.S.Puşkin adına Dövlət Təsviri Sənət Muzeyində Rusiyada yaşayan həmvətənimiz, bəstəkar və pianoçu Riad Məmmədovun solo konserti təşkil olunub.

Tədbir "Puşkinskidə cümələr" silsiləsi çərçivəsində keçirilib və bu mövsümün son konserti olub.

Konsert proqramında İ.Brams və S.Raxmaninovun əsərləri, həmçinin Riad Məmmədovun müəllif musiqiləri yer alıb.

Riad Məmmədov Bakıda doğulub, P.İ.Çaykovski adına Moskva Dövlət Konservatoriyasını fortepiano ixtisası üzrə, aspiranturanı isə musiqişünas ixtisası üzrə bitirib. Beynəlxalq müsabiqələrin laureatı, bir çox beynəlxalq festivalların iştirakçısıdır. Bu yaxınlarda Rusiya Bəstəkarlar İttifaqına üzv qəbul olunub.

# Rus Dram Teatrında premyera – "Otelloya xəyanət"

## Müəllifin yubileyinə sənət hədiyyəsi

Mayın 13-də Səməd Vurğun adına Azərbaycan Dövlət Akademik Rus Dram Teatrının səhnəsində Xalq yazıçısı Elçinin pyesi əsasında hazırlanmış "Otelloya xəyanət" tamaşasının premyerası olacaq.




Tamaşanın quruluşçu rejissoru və musiqi tərtibatçısı İlqar Safat, quruluşçu rəssamı Umay Həsənova, dekor üzrə rəssamı Əməkdar mədəniyyət işçisi Aleksandr Fyodorov, geyim üzrə rəssamı Səmra Axundova, xoreoqrafı Raulya Türkkandır.

Səhnə əsərində Xalq artistləri Lyudmila Duxovnaya, Məbud Məhərrəmov, Əməkdar artistlər Salman Bayramov, Natavan Hacıyeva, İnna İmranova, aktyorlar Yaroslav Trifonov, Gövhər Şabanova, Rüfət Əliyev, Ruslan Pavlov, Rəşad Əliyarov, İoanna Ferştandt, Səbinə Asim, Samirə Rüstəmova və Dilarə Nəzərova iştirak edirlər.

Onu da qeyd edək ki, ilk tamaşa əsərin müəllifi Elçinin doğum gününə sənət hədiyyəsi olacaq. Mayın 13-də onun 80 yaşı tamam olur. Xalq yazıçısını yubileyi və yeni pyesinin premyerası münasibətilə bəri başdan təbrik edirik.

# Gənc Tamaşaçılar Teatrının rəssamı mükafatlandırılıb

Türkiyənin İstanbul şəhərindəki "Mask-Kara" Teatrında "Teatr" ("Tiyatro") qəzetinin təsis etdiyi "Beynəlxalq Anadolu Teatr Mükafatları"nın 8-ci təqdimat mərasimi keçirilib.

Türkiyənin populyar sənət qəzetinin TÜRKSOY ilə birgə təşkil etdiyi mərasimdə Azərbaycan Dövlət Gənc Tamaşaçılar Teatrının baş rəssamı Mustafa Mustafayev də təltif olunub. O, TÜRKSOY-un "Beynəlxalq teatr mükafatı"na layiq görülüb.

Qeyd edək ki, bu il müxtəlif kateqoriyalar üzrə mükafatçılar siyahısında Türkiyənin 17 şəhər teatrının təmsilçisi var. Həmçinin Almaniya, Şimali Makedoniya, İtaliya, Azərbaycan, Qazaxıstan, Özbəkistan, Qırğızıstan, Türkmənistan və Şimali Kipr Türk Cümhuriyyətindən sənətçilər də seçilənlər sırasında olublar.

№32 (2001)
28 aprel 2023
www.medeniyyet.az

# Qobustanda vətəndaş qəbulunun vaxtı dəyişib

Mərkəzi icra hakimiyyəti orqanları və digər idarəetmə qurumları rəhbərləri şəhər və rayonlarda vətəndaşların qəbulu cədvəlinə əsasən, Azərbaycan Respublikası mədəniyyət naziri Adil Kərimlinin Qobustan rayonu Heydər Əliyev Mərkəzində (Qobustan şəhəri, Elyar Vəliyev küçəsi, 162) əsasən Qobustan, Şamaxı şəhərləri və Ağsu rayonundan olan sakinlərlə nəzərdə tutulan görüşünün vaxtı dəyişdirilib.

Nazirlikdən verilən məlumata görə, aprelin 28-nə planlaşdırılan qəbul may ayında keçiriləcək. Bununla bağlı əlavə məlumat veriləcək.

# Ermənilər özününküləşdirə bilmədikləri bütün abidələri məhv ediblər



Nizami Gəncəvi kimi dühanı dünyaya bəxş edən qədim Gəncə, eləcə də paytaxt Bakı zəngin kitab ənənələri ilə məşhurdur. Bu şəhərlərin yaxın gələcəkdə UNESCO-nun Dünya Kitab Paytaxtı elan olunması üçün müvafiq işlər aparılır.

Mədəniyyət nazirinin müavini Səadət Yusifova bu barədə 23 aprel – Dünya Kitab və Müəlliflik Hüququ Günü münasibətilə Əqli Mülkiyyət Agentliyinin keçirdiyi "Qədim mətnlər və klassik mənbələr erməniçilik saxtakarlıqlarını və uydurmalarını ifşa edir və ya əzəli Azərbaycan – Türk torpaqları olan Zəngəzur həqiqətləri" mövzusunda konfransda çıxışı zamanı deyib.

Konfransın hər bir azərbaycanlı üçün çox həssas bir mövzuya – Zəngəzur kontekstində tarixi-mədəni irsimizin vəziyyətinə həsr olunmasının əhəmiyyətini vurğulayan nazir müavini qeyd edib ki, əzəli Azərbaycan torpaqları olan Zəngəzurun qərb hissəsinin Ermənistana verilməsi yüz ildir Türk dünyasının coğrafi parçalanmasına gətirib çıxarıb.

"Biz XX əsrin ilk onilliklərində xalqımızın payına düşən acı taleyin və bu tarixi faciənin ağır nəticələrini indiyə qədər yaşayırıq. Otuz ilə yaxın Azərbaycan torpaqlarının Ermənistan tərəfindən işğal altında qalması da öz kökünü məhz həmin dövrdə yaşanan faciələrdən və buraxılmış tarixi səhvlərdən götürür", – deyən Səadət Yusifova bildirib ki, işğal dönəmində ermənilər tərəfindən Qarabağ və Şərqi Zəngəzurda tarixi-mədəni irsimizin dağıdılması və saxtalaşdırılmasının qarşını almaq üçün Azərbaycan bütün beynəlxalq platformalarda öz haqq səsinin eşidilməsi üçün çalışıb. Lakin beynəlxalq səviyyədə bütün bunlara susqunluq nümayiş etdirilib. Ermənilər Şərq-İslam memarlığı üslubunda tikilmiş karvansaraları, məscidləri, hamamları, türbələri heç cür təhrif edə bilməyəndə onları məhv edib və ya tanınmaz hala salıblar.

Diqqətə çatdırılıb ki, işğal dövründə Azərbaycan mədəniyyətinin beşiyi Şuşada olan 300-dən artıq tarixi memarlıq abidəsindən əksəriyyəti dağıdılıb. Üzeyir Hacıbəylinin, Xan Şuşinskinin, Əbdürrəhim bəy Haqverdiyevin, Mir Möhsün Nəvvabın evləri yerlə yeksan edilib. Xan qızı Natəvanın mülkündən ancaq divar salamat qalıb. Molla Pənah Vaqifin əzəmətli muzey-məqbərə kompleksi üzlük daşlarına qədər talan edilib. Bütün bunlara rəğmən, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin qeyd etdiyi kimi, 28 il ərzində Şuşaya yad olan ermənilər nə qədər çalışsa da, Şuşanın Azərbaycan ruhunu, Azərbaycan görkəmini dəyişdirə bilməyib.

Nazir müavini qeyd edib ki, işğal dövründə alban-xristian abidələri də erməni saxtakarlığına məruz qalıb. Kəlbəcər rayonunda Xudavəng monastırı, Xocavənd rayonunun Hünərli kəndində, Tuğ kəndində olan alban məbədləri buna misaldır. Erməni vandalizmi yalnız azərbaycanlıların tarixi-mədəni və dini irsinə deyil, həm də digər dini ziyarətgahlara qarşı da tətbiq olunub. 1894-cü ildə Xocavənd rayonunda inşa edilmiş rus pravoslav kilsəsi də bu acı taleyi yaşayıb.

# Gözlərə nur, qəlblərə ümid

Görkəmli oftalmoloq-alim, akademik Zərifə xanım Əliyevanın (1923-1985) anadan olmasının 100 illik yubileyinə həsr olunmuş tədbirlər davam edir.



Zərdab rayon Heydər Əliyev Mərkəzi, Həsən bəy Zərdabinin Ev-Muzeyi və Uşaq və Ailələrə Dəstək Mərkəzinin birgə təşkilatçılığı ilə "Akademik Zərifə xanım Əliyeva fədakar insan, əsl Azərbaycan qadını kimi" başlıqlı tədbir keçirilib. Tədbirdə Zərifə Əliyevanın həyat və fəaliyyətini əks etdirən "Tarix yazan oftalmoloq" başlıqlı sərgi və film nümayiş olunub.

Ağcabədi rayon Heydər Əliyev Mərkəzində "Nurdan yaranıb nura qovuşan insan" adlı tədbir keçirilib. Çıxışlarda qeyd olunub ki, akademik Zərifə Əliyevanın tədqiqatları, alim kimi qazandığı böyük uğurlar Azərbaycan tibb elminin tarixində xüsusi yer tutur. Görkəmli alimin araşdırmaları təkcə öz dövründə deyil, bu gün də öz aktuallığını qoruyub saxlayır. Sonda mərkəzin əməkdaşları tərəfindən hazırlanmış "Zərif ana" adlı videoçarx nümayiş etdirilib.



M.F.Axundzadə adına Şəki şəhər Mədəniyyət Mərkəzində "Gözündən nur verən həkim" mövzusunda tədbir keçirilib. Tədbirdə Şəki RMİ-nin rəisi səlahiyyətlərini müvəqqəti icra edən Aqaəli Cəlilov və mədəniyyət işçiləri iştirak ediblər.

Tovuz rayon Heydər Əliyev Mərkəzi, Mərkəzi Kitabxana və Tarix-Diyarşünaslıq Muzeyinin təşkilatçılığı ilə "Zərifə Əliyeva – şəfqətli əllərin sahibi" mövzusunda tədbir keçirilib. Çıxışlarda qeyd edilib ki, Zərifə Əliyeva görkəmli alim olmaqla yanaşı, həm də kövrək qəlbli insan, qayğıkeş və sevimli həyat yoldaşı, övladlarına gözəl tərbiyə verən mehriban ana olub.

# Siyasətin və müdrikliyin zirvəsində

## Bölgələrdə "Heydər Əliyev İli" tədbirləri

İsmayıllı rayon Heydər Əliyev Mərkəzində "Heydər Əliyev və kəlamları" mövzusunda rəsm müsabiqəsi keçirilib. Müsabiqənin məqsədi yaradıcılığın müxtəlif sahələrində xüsusi istedada malik uşaqları üzə çıxarmaq, məktəblilərdə Vətənə, dövlətçilik tariximizə və müstəqil Azərbaycan dövlətinin qurucusu Heydər Əliyev siyasi irsinə maraq yaratmaq olub.

***

Heydər Əliyevin 100 illiyi münasibətilə Şəkidə təşkil edilmiş futzal üzrə turnirdə Şəki mədəniyyət işçilərinin komandası uğurla yarışaraq 4/1 finala vəsiqə qazanıb. Komandanı yarışa Şəki RMİ-nin məsləhətçisi Elvin Qarayev hazırlaşdırıb.

***

"Heydər Əliyev İli" ilə əlaqədar Gədəbəy rayonu İslam Əliyev adına 3 saylı ümumi orta məktəbin müəllim və şagird kollektivinin Gədəbəy Heydər Əliyev Mərkəzinə ekskursiyası təşkil olunub. Şagirdlərə Ulu öndərin zəngin həyat yolu və siyasi fəaliyyətini əks etdirən eksponatlar haqqında ətraflı məlumat verilib.

***





Masallı Tarix-Diyarşünaslıq Muzeyinin təşkilatçılığı ilə "Heydər Əliyev irsini öyrənək" mövzusunda tədbir keçirilib. "Heydər Əliyev İli" çərçivəsində gerçəkləşən tədbirdə Masallı rayon Uşaq-gənclər inkişaf mərkəzinin müəllim və şagirdləri iştirak ediblər.

***





Salyan rayon MKS-nin Ərəbqardaşbəyli kənd kitabxana filialı R.Quliyev adına tam orta məktəbdə "Müstəqil Azərbaycan yaşadıqca Ulu öndər Heydər Əliyev də qəlblərdə yaşayacaq" adlı tədbir təşkil edib.

***

Gəncə şəhər MKS-nin 19 saylı kitabxana filialı şəhər Şah İsmayıl Xətai adına 13 saylı tam orta məktəbdə "Sən elə bir zirvəsən ki..." adlı kitab sərgisi təşkil edib.

Gəncə şəhər Fikrət Əmirov adına 1 nömrəli Uşaq musiqi məktəbinin Xalq çalğı alətləri şöbəsində "Dahi şəxsiyyət" adlı konsert təşkil olunub. Konsertdə məktəbin müəllim və şagirdləri tərəfindən Azərbaycan bəstəkarlarının əsərləri səsləndirilib.

***

Sabirabad RMİ və Mil-Muğan Regional Təhsil İdarəsinin tərəfdaşlığı ilə Sabirabad rayon Mədəniyyət Mərkəzində Ümummilli liderin 100 illik yubileyinə həsr olunmuş "Kim? Harada? Necə?" adlı intellektual bilik yarışması təşkil edilib. Yarışmaya Şirvan şəhər, Sabirabad, Saatlı, İmişli, Beyləqan, Salyan, Neftçala və Hacıqabul rayonlarından məktəblilər qatılıblar. Hacıqabul şəhər A.Dadaşov adına 5 nömrəli tam orta məktəbin şagirdləri I, Sabirabad rayon Qaratəpə kənd O.Mirzəyev adına tam orta məktəbin şagirdləri II, Salyan rayon Sarvan kənd İ.Həsənov adına tam orta məktəbin şagirdləri III yerə layiq görülərək diplom və medallarla təltif olunublar.

Saatlı rayon MKS-də Ulu öndərin 100 illiyi ilə əlaqədar "Sönməz, əbədidir Heydər Əliyev!" adlı şeir müsabiqəsi keçirilib. Müsabiqədə rayonun müxtəlif məktəblərindən olan şagirdlər tərəfindən Heydər Əliyevə həsr olunmuş şeirlər səsləndirilib. Qaliblərə fəxri fərman və hədiyyələr təqdim olunub.

**Hazırladı: N.Məmmədli**

# "Mədəni irsimizi tanıyaq, tanıdaq və birgə qoruyaq"

## Dövlət Xidməti Şamaxıda görüş keçirib



Şamaxı Rayon İcra Hakimiyyəti və Mədəniyyət Nazirliyi yanında Mədəni İrsin Qorunması, İnkişafı və Bərpası üzrə Dövlət Xidmətinin birgə təşkilatçılığı ilə aprelin 26-da "Mədəni irsimizi tanıyaq, tanıdaq və birgə qoruyaq" mövzusunda görüş keçirilib.

Daşınmaz tarix-mədəniyyət abidələrinin mühafizəsi, bu sahədə maarifləndirmə işinin təşkili, abidələrin qorunmasına ictimaiyyətin diqqətinin artırılması məqsədilə keçirilən görüşdə bələdiyyə sədrləri, təhsil müəssisələrinin rəhbərləri və rayon ictimaiyyətinin nümayəndələri iştirak edib.

İcra başçısı Tahir Məmmədov Şamaxı rayonu ərazisində yerləşən abidələrin mühafizəsi, bərpa və konservasiyası istiqamətində görülən işlərlə bağlı geniş məlumat verib. Qeyd edib ki, son illər bu sahədə həyata keçirilən tədbirlər rayonun tarixi simasının qorunmasına xidmət edir.

Dövlət Xidmətinin rəisi Səbinə Hacıyeva zəngin tarixi irsi olan Şamaxı rayonunda yerləşən abidələrin mühafizəsi işinin gücləndirilməsinin vacibliyini qeyd edib. Tarixi irsin qorunması, bərpa-konservasiyası və bu sahədə ictimaiyyətin maarifləndirilməsi ilə bağlı aidiyyəti bütün dövlət orqanları, o cümlədən icra hakimiyyətləri ilə birgə fəaliyyətin qurulacağı diqqətə çatdırılıb.



Görüşdə mədəni irsin mühafizəsində dövlət qurumlarının və vətəndaşların rolu və məsuliyyəti, mövcud problemlər və həlli yolları müzakirə olunub.

Dövlət Xidmətinin fəaliyyətinin əsas istiqamətləri, abidələrin qorunması, bərpa və konservasiyasında dövlət siyasəti və Şamaxı rayonunda yerləşən mədəni irs nümunələrinin mühafizəsi istiqamətində həyata keçirilən tədbirlər barədə təqdimat edilib. Tədbir iştirakçılarının sualları cavablandırılıb.

Toplantıdan sonra Şamaxı rayonunda yerləşən "Pir Ömər Avaxıl" ziyarətgahı, Şahxəndan türbəsi, "Yeddi günbəz" və "Kələxana" türbə komplekslərinə baxış keçirilib. Rayon ərazisində yerləşən abidələrin bərpa və konservasiyası, eləcə də turizm məqsədləri ilə istifadəsi istiqamətində atılacaq addımlarla bağlı fikir mübadiləsi aparılıb.

# Tarix-memarlıq abidəsində qanunsuz təmir işlərinin qarşısı alınıb

Gəncə şəhəri Atatürk prospekti 531 ünvanında yerləşən 3800 inventar nömrəli yerli əhəmiyyətli tarix-memarlıq abidəsinə qanunsuz müdaxilə faktı qeydə alınıb.

Mədəni İrsin Qorunması, İnkişafı və Bərpası üzrə Dövlət Xidmətindən verilən xəbərə görə, baxış keçirilən zaman abidənin üzərində quraşdırılmış məlumat lövhəsi və binanın damörtüyünün söküldüyü müəyyən edilib. Aparılan qanunsuz təmir işləri Dövlət Xidmətinin Gəncə Regional İdarəsinin əməkdaşları tərəfindən dayandırılıb.

Dövlət Xidməti bir daha mülkiyyətində və ya istifadəsində tarix və mədəniyyət abidələri olan fiziki və hüquqi şəxslərin nəzərinə çatdırır ki, "Tarix və mədəniyyət abidələrinin qorunması haqqında" Azərbaycan Respublikası Qanununun 10-cu maddəsinə əsasən, abidələrin bədii-estetik görkəminin dəyişdirilməsi, uçurulması və onlar üçün təhlükə yarada biləcək təmir, inşaat, təsərrüfat və digər işlərin aparılması qadağandır.

# Ulu öndərin 100 illiyi münasibətilə Keşikçidağ qoruğuna yürüş olub

"Heydər Əliyev İli" çərçivəsində, həmçinin Beynəlxalq Abidələr və Tarixi Yerlər Günü (18 aprel) ilə əlaqədar Mədəniyyət Nazirliyi yanında Mədəni İrsin Qorunması, İnkişafı və Bərpası üzrə Dövlət Xidməti və Ağstafa Rayon İcra Hakimiyyətinin dəstəyi ilə "Keşikçidağ" Dövlət Tarix-Mədəniyyət Qoruğu ərazisində yerləşən "İlham Əliyev adına zirvə"yə avtomobillərlə yürüş təşkil olunub.

Yürüşün məqsədi Ulu öndər Heydər Əliyevin dövlətçilik irsinin, o cümlədən Keşikçidağ mağaralar kompleksinin ərazisində yerləşən abidələrin daha geniş təbliği, qədim tariximizin gənc nəslə çatdırılması, abidələr haqqında təəssüratların yaradılmasını təmin etməkdir.



Yürüş iştirakçıları Ulu öndərin Ağstafa rayon Heydər Əliyev Mərkəzinin qarşısında ucaldılmış abidəsi önünə gül dəstələri qoyduqdan sonra qoruq ərazisinə yola düşüblər. Ağstafa-Poylu-Gürcüstan yolunun 38-ci kilometrliyində – qoruğa məxsus məlumat lövhəsinin önündə yürüşün birinci mərhələsi tamamlanıb. Sonra yürüşün ikinci mərhələsinə start verilib və sürücülər bu dəfə qoruğa məxsus informasiya mərkəzində dayanıblar. Bələdçilər tərəfindən iştirakçılara kurqanlar haqqında məlumat verilib. Qonaqlar burada 44 günlük Vətən müharibəsində canlarından keçən şəhidlərimizin əziz xatirəsinə salınmış "Badam bağı" ilə tanış olublar.

"İlham Əliyev adına zirvə"yə çatan qonaqlar atlılar tərəfindən milli musiqinin sədaları altında qarşılanıblar. Yürüş iştirakçıları qoruq ərazisindəki abidələr haqqında çap məhsullarından ibarət sərgi ilə tanış olublar.

Daha sonra iştirakçılar ərazidə yerləşən mağaralar, onların divar və tavanlarındakı freskalarla, su quyuları, ərzaq anbarları və digər tarix yadigarları ilə tanış olublar.

Çıxışlardan sonra tədbir bədii hissə ilə davam edib.

Sonda ağacəkmə aksiyası keçirilib, Ulu öndər Heydər Əliyevin 100 illiyi münasibətilə 100 ağac əkilib.

# Durnaların vədəsiz köçü kimi...

## Bakı Bələdiyyə Teatrının "Ana tarla" tamaşasının premyerası oldu



əvvəli səh. 1-də

Azərbaycan Dövlət Akademik Milli Dram Teatrında gerçəkləşən premyerada rəsmilər, Beynəlxalq Türk Mədəniyyəti və İrsi Fondunun üzv və müşahidəçi ölkələrin səfirləri, ictimaiyyət, mədəniyyət xadimləri iştirak edirdilər.

Nümayişdən öncə səhnəyə çıxan Beynəlxalq Türk Mədəniyyəti və İrsi Fondunun prezidenti Günay Əfəndiyeva qurumun fəaliyyəti, həyata keçirdiyi tədbirlər barədə danışdı. Bildirdi ki, qırğız xalqının böyük oğlu Ç.Aytmatova xalqımızın bütün nümayəndələrinin sevgi və rəğbəti var. Onun yaradıcılığı xalqımızın Ümummilli lideri Heydər Əliyevin də daim diqqət mərkəzində olub. Bu tamaşa da "Heydər Əliyev İli" çərçivəsində Ulu öndərin Ç.Aytmatovla olan doğma münasibətinə ithaf edilib.

Qırğızıstan Prezidentinin xüsusi tapşırıqlar üzrə nümayəndəsi Taalatbek Masadikov çıxışında iki böyük insanın dostluq və qardaşlıq münasibətlərinə toxundu, bu maraqlı layihəyə görə təşəbbüskarlara təşəkkürünü bildirdi. Qeyd etdi ki, Heydər Əliyev türkdilli xalqların mədəniyyəti və ədəbiyyatına hər zaman xüsusi sevgi ilə yanaşıb.

Qırğızıstanın ölkəmizdəki səfiri Kayrat Osmonaliyev də iki dost və qardaş xalqın yaxınlığına xidmət edən bu kimi layihələrin əhəmiyyətini yüksək qiymətləndirdi.

Çıxışlardan sonra "Ana tarla" tamaşası nümayiş olundu.

Tamaşanın səhnələşdirəni və quruluş müəllifi Xalq artisti Mərahim Fərzəlibəyov, quruluşçu rəssamı Əməkdar mədəniyyət işçisi İlham Əsgərov, plastik səhnələrin quruluşçusu Əməkdar artist Bəhruz Vaqifoğlu, musiqi tərtibatçısı Əməkdar mədəniyyət işçisi Nazim Əbidovdur. Əsəri Azərbaycan dilinə Teymur Elçin tərcümə edib.

Tamaşada rolları Əməkdar artistlər Hüsniyyə Mürvətova (Tolqanay), Səməyə Sadıqova (Aişə), aktyorlar Rəşad Kəsəmənli (Suvankul), Tural Əhməd (Qasım), Namiq Cavadov (Masılbek), Elçin Muradov (Caynaq), Ülviyyə Rza (Aliman), İsmayıl Atakişiyev (Usanbay) ifa edirdilər.

Rejissorun torpağı və onun bərəkətli məhsulunu da canlı obraz kimi təqdim etdiyi nümunədəki dörd sünbül – Zülfiyyə Məmmədova, Günel Həmidova, Aynur Abbasova və Arzu Ağayeva istər geyim və oyun texnikası, istərsə də plastik keyfiyyətləri baxımından səhnəyə rəngarənglik gətirə bildilər.

Tamaşada biz müharibədən zərər görən sadə kəndli ailəsinin, bir ailənin timsalında bütünlükdə insanlığın – oğul, ər, sevgili itirən bədbəxt qadınların, həyatdan doymayan gənc ərlərin, kişilərin, heç vaxt böyüməyən uşaqların, bir anda min ilin qocasına çevrilən sadə adamların dramını görürük. İnsanların yarımçıq qalmış taleləri, məhv olmuş arzu və istəkləri, eyni zamanda insanlığa, gələcəyə olan ümidləri... Hər şeyə rəğmən müəllifin təqdim etdiyi insanlar nikbindir. Bunun da səbəbkarı üstündə min cür bəlalar baş verən, qoynunda minlərlə günahsız insan, müharibələrin qurbanları yatan torpaqdır.

Biz hadisələri Tolqanay ananın torpaqla söhbəti şəklində görürük. Rejissor yazıçının bu təxəyyül səhnəsini əsərdən eynilə tamaşaya gətirməklə onun təsir imkanlarını daha da artırıb. Tamaşaçı izafi vasitələrsiz – sadəcə, dörd sünbül (aktrisa) vasitəsilə torpaq və insan, təbiət və qadın (onlar hər ikisi yaratmaq qüdrətinə malikdir anlamında) tandeminə şahidlik edir.

Hadisələr üç dövrü – II Dünya müharibəsindən əvvəlki, müharibə zamanı və müharibədən sonrakı ağır sarsıntılar mənğənəsini əhatə edir. Biz yüksək insani keyfiyyətlərə malik müdrik, zəhmətkeş, dözümlü və həm də övladlarına, sevimli həyat yoldaşına düşkün ana Tolqanayı görürük. İlk səhnədə ahıl yaşlarında torpaqla, tarla ilə söhbət edən beli bükülmüş, yaddaşı korşalmış, bət-bənizi solmuş qadın peyda olur. Torpaq, sünbüllər, buludlar, günəş, ay, hətta zamanından əvvəl gələn durnalar da onunla ünsiyyətə, dərdləşməyə can atırlar...



O isə... elə hey "Ey insanlar, müharibə etməyin! Sizə səslənirəm, dağların, dərələrin o tayındakı heç vaxt üzünü görməyəcəyim insanlar, məndən sonra dünyaya gələcək adamlar! Xoşbəxt yaşamaq, bu gözəl dünyada sevinclə ömür sürmək var ikən niyə müharibə edirsiz?! Axı bu torpaq hamımıza bəs edər. Yetdi, artıq durun! Onun qoynunda açdığınız şırımlar, sinəsinə vurduğunuz yaralar ən çox onu ağladır, incidir, göynədir, nəfəsini kəsib, ruhunu darmadağın edir!" – deyə-deyə ölümünə doğru tələsir.

Əslində isə onun gəncliyi necə qayğısız və gözəl idi. Zəhmətlə torpağa bağlanmışdı. Sevgisini, ailəsini, səadətini də orda tapmışdı. Üç oğul dünyaya gətirmiş, əri ilə əl-ələ verib onlara sevgisindən bolluca pay vermişdi. Ana dediyi torpağa can qoyduqca o da canlanmış, xoşbəxt olmuşdu. Böyük oğluna toy-büsat qurub gəlin gətirmişdi. Ortancıl ciyərparasını müəllim görəcəyi günü iplə çəkir, sonbeşiyinin... Qısacası torpaq, əmək və ailəsi onun əsas sevinc mənbəyi idi. Lakin müharibə burulğanı və qəddar faşizm onun bütün sevinclərinə son qoyur. Tolqanay ana başına gələn faciələrin altından çıxmağa çalışdıqca ağrıları birə-min artır. Müharibə onun oğlanlarını da, ərini də əlindən alır. Tək ümidi, təsəllisi boş qalmış əsgər papağı və cəbhədən gələn məktublar, bir də sığındığı xoş xatirələri. Deməli, müharibədə hər iki tərəf məğlubdur. Çünki onun qurbanı ana torpaq və insanlardır.

Musiqi həlli və sadə tərtibatı sayəsində bütün diqqəti aktyorların oyun tərzinə yönəldən səhnə əsəri təsir gücünə və mövzunun real təsvirinə görə tamaşaçılar tərəfindən alqışlarla qarşılandı.

**Həmidə Nizamiqızı**

# Azərbaycan gəncləri və müasir musiqimiz

## Üzeyir Hacıbəylinin Ev-Muzeyində sənət söhbəti



Aprelin 26-da Üzeyir Hacıbəylinin Ev-Muzeyində "Böyük Qayıdış" Gənclər Təşkilatının Azərbaycan Respublikası Gənclər Fondunun dəstəyi ilə həyata keçirdiyi "Milli musiqi müsabiqəsi" layihəsi çərçivəsində "Gənclərin müasir musiqimizə münasibəti" mövzusunda tədbir keçirilib.

Muzeyin direktoru Xalq artisti, bəstəkar Sərdar Fərəcov giriş sözündə gənclərə Azərbaycan musiqisinin dünəni və bugünkü vəziyyətindən söhbət açıb, onlara bayağı musiqinin təsiri altına düşməməyi, zövqlərini qeyri-peşəkar şəkildə yaranmış "musiqilərlə" korlamamağı tövsiyə edib. Sərdar Fərəcov royalda Azərbaycanın klassik bəstəkarlarının musiqilərindən nümunələr ifa etməklə gənclərə bayağı musiqi ilə peşəkar musiqinin fərqini nümayiş etdirib və onlara bu seçimdə yanılmamağı məsləhət görüb. Beləliklə, o, tədbirdə iştirak edən gənc musiqiçilərə demək olar ki, böyük ustad dərsi keçdi.

Tədbirdə həmçinin Üzeyir Hacıbəylinin ölməz musiqisindən, böyük şairə Xurşidbanu Natəvanın yaradıcılığından, onun əsərlərinin Üzeyir Hacıbəyli musiqisinə təsirindən söhbət açılıb. O da diqqətə çatdırılıb ki, "Milli musiqi müsabiqəsi" layihəsi Natəvanın 190 illiyinə həsr edilib.

Sonra gənclər dinlənilən mövzu ətrafında bəstəkara suallar veriblər. Sərdar Fərəcov suallara ətraflı cavab verərək musiqi sənətimizdəki problemlər və bu sahənin inkişafı üçün zəruri addımlar barədə fikirlərini bölüşüb.

Sonda layihənin rəhbəri Yusif Cəfərbəyli "Böyük Qayıdış" Gənclər Təşkilatı adından tədbirin keçirilməsi üçün yaratdığı şəraitə görə muzey direktoruna təşəkkürünü bildirib.

Tədbirdən sonra gənclər muzeyin ekspozisiya zalları ilə tanış olub, xatirə şəkilləri çəkdiriblər.

# Görkəmli musiqişünasın 100 illik yubileyinə həsr olunmuş elmi-praktik konfrans

Aprelin 25-də Ü.Hacıbəyli adına Bakı Musiqi Akademiyasında (BMA) görkəmli alim, pedaqoq İzabella Abezqauzun (1923-1988) 100 illik yubileyinə həsr olunmuş elmi-praktik konfrans keçirilib.

İzabella Vladimirovna Abezqauzun elmi-pedaqoji fəaliyyəti, yaradıcılığı XX əsrin 50-80-ci illəri, Azərbaycan musiqi mədəniyyəti tarixində misilsiz yüksəliş dövrü ilə bağlı olub. 1954-1988-ci illərdə o, Azərbaycan Dövlət Konservatoriyasında (indiki BMA) dərs deyib, bir çox musiqiçilər nəslinin yetişməsində böyük rol oynayıb. Musiqişünas alim Üzeyir Hacıbəyli, Qara Qarayev, Cövdət Hacıyev, Fikrət Əmirov, Xəyyam Mirzəzadə və başqa Azərbaycan bəstəkarlarının yaradıcılığını tədqiq edib, XIX əsr rus klassiklərinin Şərq mövzusunda yaradıcılığının təhlili üçün öz metodologiyasını işləyib. O, "Rus musiqiçiləri Qərb musiqisi haqqında", "Qara Qarayevin "Leyli və Məcnun" simfonik poeması", "Azər Rzayev", "Həsən Rzayev", "Cövdət Hacıyev" broşürlərinin, "Koroğlu" operası" (Üzeyir Hacıbəylinin bədii kəşfləri haqqında) monoqrafiyalarının, çoxsaylı məqalələrin müəllifidir.

Konfransın proqramı İzabella Abezqauzun Azərbaycan musiqi elmi və təhsili tarixində rolu, tarixi-nəzəri musiqişünaslıq problemləri, müasir ifaçılıq mədəniyyəti, şifahi ənənəli musiqinin öyrənilməsinin nəzəriyyəsi və təcrübəsi kimi mövzuları əhatə edib.

Konfransda BMA-nın, Azərbaycan Milli Konservatoriyasının, AMEA Memarlıq və İncəsənət İnstitutunun, Bakı Xoreoqrafiya Akademiyasının alimləri, habelə gənc doktorantlar və aspirantlar iştirak ediblər.



Sənətşünaslıq üzrə fəlsəfə doktoru, professor, BMA-nın Musiqi tarixi kafedrasının müdiri Ülviyyə İmanova vaxtilə müəllimi İzabella Abezqauzun pedaqoji prinsiplərindən bəhs edib. Fəlsəfə doktoru, professor Gülnaz Abdullazadə, sənətşünaslıq üzrə fəlsəfə doktoru, professor İmruz Əfəndiyeva, sənətşünaslıq üzrə fəlsəfə doktorları, professorlar Zümrüd Dadaşzadə və Lalə Rzayeva, sənətşünaslıq üzrə fəlsəfə doktorları İnna Pazıçeva, İradə Hüseynova, Minaxanım Babayeva, baş müəllim Alyona İnyakina və başqalarının məruzələri dinlənilib.

"Heydər Əliyev İli"

# Mədəniyyətimizin böyük hamisi



Ümummilli lider Heydər Əliyev böyük siyasətdə olduğu bir qərinədən artıq dövrdə, doğma xalqının taleyində tarixi rol oynamaqla bərabər, mədəni irsimizin qorunması və zənginləşdirilməsi, milli incəsənətin, ədəbiyyatın inkişafı, respublikada mədəni-maarif işinin qabaqcıl səviyyədə təşkili sahəsində də müstəsna xidmətlər göstərib. Heydər Əliyevin mədəniyyətə diqqət və qayğısı onun dövlət xadimi kimi fəaliyyətinin bütün mərhələlərində – sovet Azərbaycanına rəhbərlik etdiyi illərdə, Moskvada, SSRİ rəhbərliyində çalışdığı vaxtda və müstəqil Azərbaycana onillik prezidentliyi dövründə tarixin yaddaşına çoxsaylı səhifələrə yazılıb. O, hər zaman və hər yerdə Azərbaycan mədəniyyətinin böyük hamisi olub. Bununla bağlı illərin xronikasından seçdiyimiz məqamları "Heydər Əliyev İli"nə töhfə olaraq diqqətinizə təqdim edirik...

## İllərin xronikasından (28)

**1981-ci il 1 dekabr**

Heydər Əliyev görkəmli aktyor, rejissor Hüseyn Ərəblinskinin (1881-1919) anadan olmasının 100 illiyi münasibətilə keçirilən yubiley mərasimində iştirak edib.

**1981-ci il 10 dekabr**

Azərbaycan KP MK-nın Birinci katibi Heydər Əliyev şairlər Süleyman Rüstəm və Balaş Azəroğlunun təltif olunması mərasimində nitq söyləyib.

*"...Süleyman Rüstəm ədəbiyyata 20-ci illərin əvvəllərində gəlmişdir. Səməd Vurğun və Rəsul Rza ilə birlikdə Süleyman Rüstəm ədəbiyyatımızın tarixinə Azərbaycan sovet poeziyasının banilərindən biri kimi daxil olmuşdur. Böyük Vətən müharibəsi illərində Süleyman Rüstəmin yaradıcılığı xüsusi əhəmiyyət kəsb etmişdir. Onun haqq işimizə dərin inamla aşılanmış şeirləri və poemaları, publisistik çıxışları qəddar düşmənlə amansız çarpışmada cəbhəyə kömək edir, Azərbaycan zəhmətkeşlərini gələcək qələbə uğrunda mübarizəyə ruhlandırırdı. Süleyman Rüstəmin yaradıcılığı çoxcəhətlidir. O, poemalar və lirik şeirlər müəllifidir, bu şeirlərin bir çoxuna musiqi bəstələnmişdir. Biz onu həm də dramaturq kimi tanıyırıq...*

*Şair o zaman yaxşı şair olur ki, onun ilhamı, yaradıcılığı müasir cəmiyyətin tələblərinə cavab verir... Süleyman Rüstəmin yaradıcılığında Cənubi Azərbaycan mövzusu, onun xalqının öz sosial və milli azadlığı uğrunda mübarizəsi mövzusu görkəmli yer tutur.*

*Süleyman Rüstəm ictimai-siyasi həyatda da fəal iştirak edir. Azərbaycan Yazıçılar İttifaqının yaradıldığı gündən onun idarə heyətinin üzvüdür. Bütün çağırışlar Azərbaycan SSR Ali Sovetinin deputatıdır, 1970-ci ilin əvvəlindən bu günə qədər isə Azərbaycan SSR Ali Sovetinin sədri kimi fəxri vəzifəni yerinə yetirir.*

*1943-cü ildə ona respublikanın Əməkdar incəsənət xadimi, 1960-cı ildə Xalq şairi adı, 1976-cı ildə, 70 yaşı tamam olanda isə ona ölkəmizdə ən fəxri ad olan Sosialist Əməyi Qəhrəmanı adı verilmişdir. O vaxtdan beş il keçmişdir. Əvvəlki kimi yenə də cavandır, yaradıcılıq qüvvəsi tükənməmişdir. Anadan olmasının 75 illiyi ilə əlaqədar olaraq Süleyman Rüstəm Azərbaycan SSR Ali Soveti Rəyasət Heyətinin Fəxri fərmanı ilə təltif edilmişdir. Mənə tapşırılmış vəzifəni böyük məmnuniyyət hissi ilə yerinə yetirərək onu sevimli şairimizə təqdim edirəm.*

*Azərbaycan ədəbiyyatının görkəmli nümayəndələrindən biri olan Balaş Azəroğlunun 60 yaşı tamam olmuşdur. Onun yaradıcılığının ilk dövrü Cənubi Azərbaycanda keçmişdir. İlk şeirlərinin bir çoxu qırxıncı illərin əvvəllərində Cənubi Azərbaycanda gedən ictimai-siyasi prosesləri əks etdirir. Həmin şeirlərin əsasını şah istibdadına, sosial zülmə və milli istismara qarşı mübarizə motivləri təşkil edir. Onun İran şahına açıq məktubunu bu baxımdan ən mühüm mərhələ hesab etmək olar.*

*35 ildir Balaş Azəroğlu Sovet Azərbaycanında yaşayıb-yaradır. Şairin yeni əsərlərində də biz çox zaman Cənubi Azərbaycan mövzusuna rast gəlirik. Bu əsərlər onun çoxmilyonlu xalqının arzu və istəklərini əks etdirir. Balaş Azəroğlunun yaradıcılığının əhəmiyyətli cəhətlərindən biri də istər bizdə, istərsə də Cənubi Azərbaycanda müasir ədəbiyyatın inkişafına səmərəli təsir göstərməsindən ibarətdir.*

*Balaş Azəroğlunun yaradıcılığı partiya və hökumət tərəfindən yüksək qiymətləndirilmişdir. O, "Şərəf Nişanı" ordeni ilə, bir neçə medalla təltif olunmuşdur. Bu il isə sovet ədəbiyyatının inkişafında xidmətlərinə, səmərəli ictimai-siyasi fəaliyyətinə görə və anadan olmasının 60 illiyi ilə əlaqədar olaraq SSRİ Ali Soveti Rəyasət Heyəti tərəfindən "Xalqlar Dostluğu" ordeni ilə təltif edilmiş, respublikamızın Ali Sovetinin Rəyasət Heyəti fərmanı ilə ona Xalq şairi fəxri adını vermişdir. Hər iki mükafat münasibətilə onu hərarətlə təbrik edirəm...".*

***

Mədəniyyət xadimlərinin fəaliyyəti dövlət tərəfindən qiymətləndirildi.

**1981-ci il 24 dekabr**

Azərbaycan SSR Ali Soveti Rəyasət Heyətinin fərman ilə sovet teatr sənətinin inkişafında xidmətlərinə görə C.Cabbarlı adına İrəvan Dövlət Azərbaycan Dram Teatrının bir neçə əməkdaşına fəxri adlar verilib:

Əməkdar incəsənət xadimi – Tofiq Ağayev (baş rejissor); Əməkdar artist – Tamilla Abdullayeva, Vidadi Əliyev, Maretta Kərimova.

***

Teatr sənətinin inkişafında xidmətlərinə görə və C.Cabbarlı adına Kirovabad (Gəncə – red.) Dövlət Dram Teatrının yaradılmasının 60 illiyi ilə əlaqədar olaraq teatrın bir qrup əməkdaşına fəxri adlar verilib:

Xalq artisti – Zülfüqar Baratzadə, Sədayə Mustafayeva; Əməkdar artist – Qurban Abbasov, Əli Allahverdiyev, Alim Məmmədov, Rza Nadirov; Əməkdar incəsənət xadimi – Ələddin İsmayılov (teatrın direktoru).

Bundan əlavə, uzun illər səmərəli fəaliyyətinə görə C.Cabbarlı adına Kirovabad Dövlət Dram Teatrının 60 illiyi ilə əlaqədar olaraq teatrın bir qrup əməkdaşı Azərbaycan SSR Ali Soveti Rəyasət Heyətinin Fəxri fərmanı ilə təltif edilib.

**1981-ci il 28 dekabr**

Azərbaycan sovet ədəbiyyatının inkişafında böyük xidmətlərinə görə və anadan olmasının 60 illiyi ilə əlaqədar olaraq yazıçı Əzizə Cəfərzadə Azərbaycan SSR Ali Sovetinin Fəxri fərmanı ilə təltif edilib.

**Hazırladı: V.Orxan**

*(davamı var)*

# Kino Forumunda gündəmə gələnlər və toxunulmayanlar...



Mədəniyyət Nazirliyi və Heydər Əliyev Mərkəzinin təşkilatçılığı ilə Ümummilli lider Heydər Əliyevin 100 illik yubileyi münasibətilə Bakıda "Azərbaycan kinosu – 125: reallıq, çağırışlar və hədəflər" mövzusunda (20-21 aprel) forum keçirildi. Heydər Əliyev Mərkəzində gerçəkləşən Kino Forumunda müasir kinematoqrafiyamızın inkişafı ilə bağlı geniş müzakirələr aparıldı. Tədbirdə Türkiyə, Rusiya, Fransa, Gürcüstandan da kino mütəxəssisləri iştirak edirdi.

Kino istehsalı və yayımı prosesinin bütün mərhələlərinin problemləri forumun panel iclaslarının əsas mövzuları idi. Açılış mərasimində Xalq artisti Rasim Balayevin də vurğuladığı kimi, son 30 ildə sanki ənənələr, sələflər və xələflər arasında bağlar qopub, bir pərakəndəlik yaranıb. Amma onu da unutmayaq ki, Azərbaycanın uzun tarixi olan kinematoqrafiyası ilə, sözün həqiqi mənasında, öyünə bilərik. 125 illik kino salnaməmizin çox parlaq səhifələri yazılıb.

### Kino bahalı sənətdir...

Bir neçə il əvvəl Əməkdar incəsənət xadimi, rejissor Elxan Cəfərovla söhbətimizdə "Kino bahalı sənətdir" fikrini səsləndirmişdi. Bəli, məhz bahalı sənət. Forumun müxtəlif panel mövzuları olsa da, iki gün boyunca bütün yollar elə bu "bahalılıq söhbəti"nə aparıb çıxarır. Nədənsə, kino adamları, kinonun işindən baş açan panel iştirakçıları müasir Azərbaycan kinosunun perspektivini, uğurunu maliyyədə axtardılar.

Kinoşünas deyiləm, amma neçə illərdir bu sahədən yazıb-pozduğum üçün kinomuzun problemlərindən az-çox xəbərdaram və forumu da axıracan izlədiyimdən deyə bilərəm ki, səslənən təklif və problemlər nə qədər idisə, dilə gətirilməyən məsələlər də elə bir o qədər idi...

Əsas məqamlardan biri kadr məsələsi idi ki, bu mövzuda forumun ilk günündə Rasim Balayev öz fikirlərini bildirdi: "Mədəniyyət və İncəsənət Universitetinin fəaliyyətinə kölgə salmaq istəmirəm. Aktyoru rejissorlar yetişdirə bilər, amma əsas ssenari və rejissordur. Müsabiqə keçirilsin, heç olmasa, ildə bir dəfə rejissor, operator, ssenarist və ya prodüser xaricə təhsilə göndərilsin. Zamanında bir-iki türk filminə çəkildim. Mən ora gedəndə Türkiyədə bu sahə hələ zəif idi. Söhbət 1992-ci ildən gedir. Sonradan aktyorları xaricə təhsilə göndərdilər. Bu gün isə türk kino məktəbi çox güclüdür. Bu da təhsilin nəticəsidir. Biz də bu gündən başlasaq, bir neçə ildən sonra nəticəsini görəcəyik".

Rasim müəllimin çıxışı zamanı məni həm də digər sahələr düşündürürdü. Məsələn, bu gün bir qısametrajlı film çəkilirsə belə, onun musiqisi, ssenarisi, aktyorların qrimi və s. məsələlərlə bağlı çatışmazlıqlar var...

### Bəşəri ideyalara açıqlıq, yoxsa yad təsirlərə düşmək?

Bu gün hər kəsin istəyidir ki, Azərbaycan öz kinosu ilə dünya arenasına çıxsın. Bəşəri problemləri diqqət mərkəzinə gətirən filmlər çəkilsin. İllər öncə kinoşünas Nadir Bədəlov bir məqaləsində yazırdı: "Tam əminliklə, eyni zamanda klassik, milli sərvətimiz sayılan filmlərimizi unutmamaq şərti ilə deyə bilərik ki, bizim kino hələ yaranmayıb. Onu gənclərimiz, yeni nəsil kinematoqrafçılar yaradacaq. Onların üzərinə nüfuzlu kino festivallarında iştirak edib mükafatlar qazanmaqdan daha böyük vəzifə – kino vasitəsilə vətəndaşlarımızı milli ideologiyamızın subyektinə çevirmək vəzifəsi düşür".

Forumun panel müzakirələrində bu mövzuda gənclərlə bağlı xeyli tənqidi fikirlər səsləndirildi. Onlarsa bu tənqidi qəbul etmədilər. "Festivallar konyunkturaya çevrilib" kimi fikirlər də birmənalı qarşılanmadı. Bildirildi ki, festival filmlərinin əksəriyyəti bədii ideyalar daşımır. Belə ekran əsərlərində bəzən nə ümumbəşəri mesaja, nə də milli ideologiyaya rast gəlinmir.

Dramaturq, ssenarist, Yazıçılar Birliyinin katibi İlqar Fəhmi dedi ki, ümumbəşəri ideyalar mövzusunda danışarkən, ilk növbədə, insan sevməyi bacarmalıdır. İlk olaraq öz xalqını sevməlisən, sonra bəşəriyyəti: "Yəni yaradıcı insan, dramaturq, ssenarist öz əsərini sevgidən doğurmalıdır, nəinki nifrətdən. Amma əfsus ki, son vaxtlar yaranan əsərlərin əksəriyyəti daha çox sanki nifrət və qəzəbdən doğur. Belə neqativə köklənmiş və nifrətdən doğan sənət əsərləri ilə biz nə xalqımızın sevə biləcəyi filmlər ərsəyə gətirə bilərik, nə də başqa xalqların diqqətini cəlb edə bilərik. Hər şey sevgidən başlayır. Vətən sevgisi, sənət sevgisi və insan sevgisi. Ələlxüsus insan sənətini və bu sənətdəki insanları sevməlidir. Nə qədər ki sənətlə sevgi arasında bir uçurum var, düşünürəm ki, nə kinomuz nə teatrımız nə də ədəbiyyatımız xalqımıza həqiqi mənada hansısa qiymətli bir töhfə verə bilməyəcək".

### Kinoda milli ideologiya yaranmalıdır

SSRİ-nin süqut etməsindən sonra ölkənin digər sektorları kimi, kino da bazar iqtisadiyyatına keçidin çətinlikləri ilə baş-başa qaldı. Çox ağır keçən ilk illərdə yaradıcılıq sahələri dayanmaq həddinə çatdı. Məhz Ulu öndər Heydər Əliyevin hakimiyyətə qayıdışından sonra mədəniyyət sahəsinə diqqət və qayğı göstərildi, bu istiqamətdə bir canlanma yarandı.

Əməkdar incəsənət xadimi Ayaz Salayev bildirdi ki, biz artıq 30 ildir müstəqil ölkəyik. Müstəqil ölkə müstəqil sənət tələb edir, o cümlədən də kino sahəsində: "Kinoda ideoloji xətti tutmalıyıq. Milli ideologiya yaranmalıdır. Kino millətin güzgüsü olmalıdır. Xalq filmə baxanda özünü dərk etməlidir. Qarabağ Zəfərindən sonra biz sanki yenidən göz açmışıq və bu hiss kino sənətində də özünü göstərməlidir".

### Sahənin inkişafını təmin edəcək mexanizmlər işə düşməlidir

"Kino əmtəə vahidi, yaradıcılıq və təbliğat daşıyıcısıdır", – deyən Əməkdar incəsənət xadimi, kinorejissor Rafiq Quliyev bildirdi ki, kino təkcə əyləncə vasitəsi deyil, həm də biznesə xidmət edir: "Biz dünya kinosuna, qlobal kinematoqrafa daxil olmaq istəyiriksə, artıq dünyada işlənən mexanizmlərdən istifadəni bacarmalıyıq. Forumda xaricdən də mütəxəssislər var. Onlar bizimlə öz təcrübələrini bölüşüb əlaqələr yaratmaq fikrində olduqlarını bildirdilər. Həm məruzələrdə, həm də digər iştirakçıların fikir və təklifləri maraq doğurur. Problemlərə gəlincə, istehsalatla bağlı məsələlər həmişə olub. Prokat və yayım problemlərimiz var. Tamaşaçı kinoteatrsız qalıb. Özəl kinoteatrların öz şərtləri var, bəzən isə Azərbaycan filmlərinin nümayişinə meyil göstərmirlər. Forumdakı müzakirələr göstərdi ki, Kino Agentliyinin üzərinə böyük məsuliyyət düşür. Gələcəkdə kinonun inkişafını təmin edəcək mexanizmlər düşünülməli, qanunvericilikdən tutmuş istehsal münasibətlərinə qədər bütün incəliklər nəzərdə keçirilməli, işlək mexanizm yaradılmalıdır".

### Xarici mütəxəssislər nə deyir?

Türkiyə Mədəniyyət və Turizm Nazirliyi Kino idarəsinin müdiri Erkin Yılmaz ölkəsində kino sənayesinin inkişaf mərhələlərindən danışdı. Dedi ki, Azərbaycanın film istehsalçıları türkiyəli həmkarları ilə əməkdaşlıq edə bilərlər. Bunun üçün imkan və şərait var. Qeyd olundu ki, 2022-ci ildə Türkiyədə 200-ə yaxın beynəlxalq film layihəsi reallaşdırılıb. Hazırda qardaş ölkədə hər il orta hesabla 150 film ərsəyə gətirilir. 2004-cü ildə kino haqqında qəbul edilmiş qanun sayəsində Türkiyə bu istiqamətdə inkişafa nail oldu: "Türk filmlərinin dünyada sevilməsinin əsas məğzi özəl hekayələrin olmasıdır. Ölkədə yerli filmlərin izlənməsi 56 faiz təşkil edir".

Rusiya Dövlət Film Fondunun icraçı direktoru Fyodor Sosnovun paylaşdığı təcrübə də maraqla qarşılandı. Fondun təşkili və fəaliyyət mexanizmləri haqqında məlumat verən qonaq dedi ki, 1994-cü ildə dünya və Rusiya kinematoqrafiyasının 100 illik yubileyinə hazırlıq çərçivəsində Rusiya Federasiyasının Kinematoqrafiya Komitəsi Daxili Kinematoqrafiyaya Sosial-İqtisadi Dəstək Fondunun yaradılması təşəbbüsü ilə çıxış etdi və bir il sonra hökumət bu fondun yaradılması haqqında fərman verdi. Fondun əsas məqsəd və vəzifələri yerli kinematoqrafiyanın dəstəklənməsi, rəqabət qabiliyyətinin artırılması, milli maraqlara cavab verən yüksəkkeyfiyyətli filmlərin yaradılması üçün şəraitin təmin edilməsi, habelə milli filmlərin Rusiyada və xaricdə populyarlaşdırılmasıdır.

Kann, Venesiya və San-Sebastyan film festivallarının tərtibatçısı olmuş Matyö Darras, Hollivud rejissoru Timur Bekmambetovun "Bazelevs" studiyasının baş prodüseri Lalə Rüstəmova, beynəlxalq media hüququ və əqli mülkiyyət sahəsi üzrə hüquqşünas Levan Nanobaşvili, Kann, Venesiya, Berlin festivallarının mükafatçısı, prodüser Giyom de Sey Azərbaycanın tarixi ilə maraqlandıqlarını və Azərbaycan filmlərinin dünyaya çıxarılmasında maraqlı olduqlarını bildirdilər. Qeyd olundu ki, yerli film festivalları da ümumi inkişafa töhfə verə bilər. Eyni zamanda kino sahəsində qonşu ölkələrlə münasibətlərin qurulması əhəmiyyətli olar.

Bir sözlə, Şərqlə Qərbin kəsişməsində yerləşən zəngin mədəniyyətə malik Azərbaycanda kinonun inkişafı üçün kifayət qədər imkanlar var. Qonaqlar müştərək filmlərin istehsalı, müəllif hüququnun qorunması, studiya və kadr məsələləri ilə bağlı təcrübələrini bölüşdülər.

***

Forumda aparılan müzakirələrdən bir sıra nəticələr hasil etmək olar. Bunların arasında bəlkə də ən vacibi kino xadimlərinin bu sahəyə sevgi və aydın təfəkkürlə yanaşmasıdır. Eqomuzu qırağa qoyub kinomuzun inkişafı üçün çalışmalıyıq. Bir sözlə, Azərbaycanın kinematoqrafiyasının qarşısında əsaslı dəyişilmək kimi çox çətin və zəruri bir vəzifə dayanır. Ümidliyik...

**Lalə Azəri**

# Opera səhnəmizdəki səksən altı yaşlı "Koroğlu"

Əsası Üzeyir Hacıbəyli tərəfindən qoyulan Azərbaycan operası yarandığı gündən etibarən Azərbaycan musiqi incəsənətinin ən sevimli janrlarından birinə çevrilib. P.İ.Çaykovski bəstəkar yaradıcılığında operanın xüsusi yerindən bəhs edərək yazırdı: "Operada bütün bəstəkarları özünə cəlb edən nə isə var. Yalnız bu, sizə geniş tamaşaçı kütlələri ilə təmasda olmağa imkan yaradır...".

Digər ölkələrdə olduğu kimi, Azərbaycanda da opera janrının inkişaf tarixində müxtəlif ideya-yaradıcı istiqamətlərin, estetik dünyagörüşlərinin, bədii üslubların dəyişilməsi öz əksini tapıb. Bu baxımdan Azərbaycan musiqisinin böyük nailiyyətləri olan iki əsər – M.Maqomayevin "Nərgiz" (1935) və Ü.Hacıbəylinin "Koroğlu" (1937) operaları müasir opera sənətində gedən dərin metod axtarışlarını əks etdirir.

Üzeyir bəy xalq musiqisinin xüsusiyyətlərini dərindən mənimsəyərək, ona xas olan cəhətləri incəliyinə qədər öyrəndikdən sonra "Koroğlu" operası kimi möhtəşəm bir əsər yaradıb. Koroğlunu zaman-zaman aşıqlar tərənnüm edib və operanın musiqisində də aşıq üslubu üstünlük təşkil edir. Bu daha çox III və IV aktlarda özünü aşıq kim qələmə verən Koroğlu partiyasında hiss edilir. Muğamatdan isə başlıca olaraq xanı və onun saray adamlarını xarakterizə etmək üçün istifadə edilib. Opera musiqisi əsasən dörd muğam ladı əsasında qurulub. Bunlar "Çahargah", "Şur", "Bayatı-Şiraz" və "Rast" muğamlarıdır.

Operanın ümumi üslubu klassik üslubdur, buna yad olan hər cür formalizm ünsürlərinə yer verilməyib. Belə bir unikal operanın yaradılması Azərbaycan musiqisi tarixində əlamətdar hadisə idi.

1937-ci il aprelin 30-da ilk tamaşasından başlayaraq uzun illər operada baş rolu Azərbaycan musiqi və opera sənətinin əvəzolunmaz ifaçısı Bülbül ifa edib.



Bülbülün vokalçı kimi şöhrətlənməsi də bilavasitə onun "Koroğlu" operasında yaratdığı əvəzolunmaz obrazla bağlıdır.

Orijinal, təravətli musiqi, maraqlı süjet, gözəl orkestr səslənməsi operaya böyük uğur və populyarlıq gətirdi. Operanın bu cür sevilməsində, sözsüz ki, Bülbülün gözəl ifası xüsusi rol oynayırdı. "Koroğlu" dedikdə yaşlı nəslin yaddaşında Bülbül canlanır. Ona görə ki, Bülbül professional ifası, zəngin çalarlı, geniş diapazonlu lirik-dramatik tenor səsi sayəsində bu obrazı böyük məharətlə yaratmışdı.

Üzeyir bəy Koroğlu partiyasını Bülbülün səs imkanlarına uyğun yazdığından operanın bir neçə yerində yuxarı "do" notu nəzərdə tutulmuşdu. Bülbül yaratdığı obraz haqqında öz məqaləsində yazır: "Mənim qəhrəmanım Koroğlu isə bu vaxtadək yaranmış opera qəhrəmanlarından çox fərqlidir. Opera dramaturgiyasındakı məşhur obrazlardan Verdinin "Otello" operasındakı Otello, Çaykovskinin "Qaratoxmaq qadın" operasındakı German, Bizenin "Karmen" operasındakı Karmen, Verdinin "Aida" operasındakı Radames və başqa bu kimi obrazlar Koroğlu obrazı kimi çoxcəhətli, çoxtərəfli deyildir. Adlarını çəkdiyim obrazlar nə qədər psixoloji xüsusiyyətlərlə dolğundursa, Koroğlu obrazı bir xalq qəhrəmanı, mübariz sərkərdə kimi onlardan çox fərqlidir. Koroğlu həm igid, sərrast vurandır, at oynadandır, nərə çəkəndir, aşıqdır, saz çalan və oynayandır. Bu keyfiyyətlərə malik olan obrazı yaratmaq olduqca mürəkkəbdir" (Bülbülün Memorial Muzeyi, əsas fond DK 1, 2825 ).

Bülbül müsəlman dünyasından olan ilk vokalçıdır ki, İtaliyada təhsil almış və spesifik Şərq oxumasından Avropa oxuma məktəbinə keçmiş, Azərbaycan milli oxuma sənətinin ən yaxşı üsullarını rus və Avropa məktəbi ilə sintez etmiş, Azərbaycanda yeni vokal məktəbi yaratmışdı. Bu məktəb yalnız Azərbaycan və digər milli respublikalar üçün əhəmiyyətli deyildi, o, Yaxın və Orta Şərq ölkələrinə də çox güclü təsir etmişdi.

Bülbül Azərbaycan musiqi sənətinin inkişafı tarixində bütöv bir dövrdür. O, nəhəng fəaliyyət diapazonuna malik dahi şəxsiyyətdir. Müğənni və artist, musiqişünas-alim, pedaqoq, novator Bülbül öz dövründə musiqi sənətimizdə mütərəqqi və yeni nə varsa hamısının təşəbbüskarı və təbliğatçısı idi...

**Mehriban Veyisova**
**Bülbülün Memorial Muzeyinin ekskursiyaçısı**

# Milli Qəhrəman Albert Aqarunovun xatirəsi yad edilib



Azərbaycanın Milli Qəhrəmanı Albert Aqarunovun (1969-1992) doğum günü münasibətilə tədbirlər keçirilib.

Müdafiə Nazirliyi, Diasporla İş üzrə Dövlət Komitəsi, Şuşa və Nərimanov rayon icra hakimiyyətlərinin rəsmiləri, Bakı şəhəri Dağ Yəhudiləri Dini İcması, "Veteran Tankçılar" İctimai Birliyi və ictimaiyyət nümayəndələri əvvəlcə Şəhidlər xiyabanında iki dəfə Sovet İttifaqı Qəhrəmanı, tank qoşunları general-mayoru Həzi Aslanovun məzarını ziyarət ediblər.

Əməkdar incəsənət xadimi, Prezidentin fərdi təqaüdçüsü polkovnik Abdulla Qurbani çıxış edərək bildirib ki, Milli Qəhrəmanın ad günündə ilk olaraq Həzi Aslanovun məzarını ziyarət etməyimiz heç də təsadüfi deyil. Yeni yaranmaqda olan Azərbaycan Ordusunun ilk tankçıları, eləcə də Albert Aqarunov burada şəhidlərimizin, o cümlədən Həzi Aslanovun məzarı önündə and içərək müqəddəs savaşlara yollanmışdılar. 2020-ci il Vətən müharibəsi başlayanda da tankçılarımız "Hər birimiz Həziyik, hər bir əmrə hazırıq!" şüarı altında döyüş meydanlarına atılmışlar.

Sonra Milli Qəhrəman Albert Aqarunovun məzarı önünə güllər düzülüb, xatirəsi ehtiramla yad edilib. Din xadimləri şəhidlərin ruhuna dualar oxuyub, veteranlar xatirələrini söyləyiblər.

Qeyd edilib ki, Azərbaycan tolerant ölkədir. Burada yaşayan bütün xalqların nümayəndələri Azərbaycanın suverenliyi, ərazi bütövlüyü uğrunda düşmənə qarşı mərdliklə vuruşub. Albert Aqarunov yəhudi əsilli idi. Ancaq o, azərbaycanlı idi, Azərbaycan vətəndaşı idi və bununla fəxr edirdi. Milli Qəhrəman yəhudi xalqı ilə dostluq və qardaşlığımızın rəmzinə çevrilib.

Mərasim Albert Aqarunovun abidəsi önündə (paytaxtın Nərimanov rayonu ərazisində Milli Qəhrəmanın adını daşıyan küçədə) davam edib. Qəhrəmanın həyat və döyüş yolu barədə məlumat verilib.

Qeyd olunub ki, Albert Aqarunov 1969-cu il aprelin 25-də Bakıda doğulub. Suraxanı rayonundakı 154 saylı orta məktəbin 8-ci sinfini bitirib. Texniki-peşə məktəbində sürücü-mexanik peşəsinə yiyələnib. Hərbi xidmətini Gürcüstanda tank qoşunlarında keçib. Ordudan tərxis olunduqdan sonra bir müddət Suraxanı maşınqayırma zavodunda çalışıb. 1991-ci ildə Azərbaycan Ordusunda yeni yaranan əlahiddə tank taboruna yazılıb. Xankəndi, Şuşa, Daşaltı, Cəmilli istiqamətlərində erməni təcavüzkarlarına qarşı mərdliklə vuruşub. 1992-ci il mayın 8-də Şuşa-Laçın yolunda döyüşdə şəhidlik zirvəsinə ucalıb. Ölümündən sonra Azərbaycanın Milli Qəhrəmanı adına layiq görülüb.

Vurğulanıb ki, 44 günlük Vətən müharibəsində qazandığımız Zəfər həm Birinci, həm də İkinci Qarabağ müharibəsində şəhid olan Vətən övladlarının ruhlarını şad etdi. Onların qanı yerdə qalmadı, intiqamı döyüş meydanında alındı.

Mərasimdə Şuşa Rayon İcra Hakimiyyətinin başçısı Bayram Səfərov, Bakı şəhəri Dağ Yəhudiləri Dini İcmasının sədri Milix Yevdayev, "Veteran Tankçılar" İctimai Birliyinin sədri Hacı Əzimov, Nərimanov Rayon İcra Hakimiyyəti başçısının müavini Novruz Nəcəfov, Diasporla İş üzrə Dövlət Komitəsinin əməkdaşı Səlhət Abbasova, Milli Qəhrəmanın qardaşı Rantik Aqarunov çıxış edərək ürək sözlərini bölüşüblər.

## Azərbaycan İkinci Dünya müharibəsində

AMEA A.Bakıxanov adına Tarix İnstitutu Azərbaycan Respublikası tarixi şöbəsinin müdiri tarix elmləri doktoru, professor Mais Əmrahovun "Azərbaycan SSR İkinci Dünya müharibəsində (1939-1945)" kitabı nəşr olunub.

İnstitutdan bildirilib ki, kitabın elmi redaktoru tarix üzrə fəlsəfə doktoru, dosent Cəbi Bəhramov, rəyçiləri tarix elmləri doktoru, dosent Nazim Məmmədov və tarix üzrə fəlsəfə doktoru, dosent Afaq Priyevadır.

Monoqrafiyada II Dünya müharibəsi ərəfəsində beynəlxalq siyasi mənzərəyə nəzər salınır, faşizm üzərində tarixi Qələbənin əldə edilməsində Azərbaycan xalqının töhfələrindən bəhs edilir. Kitabda Sovet İttifaqı Qəhrəmanları olan və "Şöhrət" ordeninin üç dərəcəsi ilə təltif edilən azərbaycanlılar haqqında bioqrafik məlumatlar verilib. Monoqrafiyada müharibə dövründə yaranmış çətinliklərdən istifadə edən düşmənin Azərbaycanda gizli təbliğat aparması da arxiv sənədləri əsasında təhlil olunur.

# Kədərdən doğan ümid

## Tarkovskinin filmləri haqqında

Görəsən, sovet hakimiyyətinin sərt dövründə öz ideyalarını həyata keçirən və qarşılığında uzun müddət mənəvi sarsıntılara məruz qalan Andrey Tarkovski bu gün yaşasaydı, o vaxtlar olduğu kimi, ekranda insanların qəm pəncərəsinin yeni mənzərəsini sərgilərdi, yoxsa yeni yanaşma "izm"ləri kəşf edib, özünün keçmiş ideyasının əksinə çıxaraq, tamamilə fərqli bir kino əsəri yaradardı?



Onun filmlərinin süjet xəttinin ovqatını qüssə, kədər, qəm, iztirab, mənəvi sarsıntı, ağrı-acı təşkil edir. Xoşbəxtliyin ömrü kəpənək ömründən də qısadır. Xoşbəxtlik insanlara bir anlıq bəxş edilir və həmən də geri alınır.

Tarkovski qəmli dünyanın kədər carçısıdır. O, kədərin obrazlı ekran versiyasıdır. Mənəvi işgəncələrdən sərməst olan sənətkardır. O özündə və yaradıcılığında kədəri simvolizə edir, onu inkişaf etdirməkdən "mənən" zövq alır, tamaşaçıları da öz ideyalarının "qurbanı olmağa" vadar edir. Yaradıcılığının yükü lentə aldığı yeddi əsas filmin üzərinə düşüb.

Onun ilk filmini – "İvanın uşaqlığı"nı (1962) müharibə dövründə baş verən hadisələrin ekran variantı adlandırmaq olar. Filmin baş qəhrəmanı 13 yaşlı İvan müharibənin yaratdığı kimsəsizdir. Müharibə onun ana və bacısını əbədiyyətin ağuşuna atıb. O, başına gələnlərlə barışmır, müharibənin səbəbkarları ilə mübarizə aparmaq üçün döyüş meydanına atılır, yaşına-başına baxmadan, kəşfiyyatçı kimi düşmən zonasındakı məlumatları öz yoldaşlarına çatdırıb, neçə-neçə insanı ölümdən qurtarır. Bununla da kifayətlənməyib daha da irəli getməyə çalışır, ancaq komandiri ona imkan vermir, onun normal uşaqlar kimi yaşamalı olduğunu söyləyib, uşaqlar evinə yollamağı qərara alır. İvan uşaq olsa da, öz qərarlarını verə biləcək ağıldadır. O, hətta komandirlə üz-üzə gəlməkdən çəkinməyib, onun fikrinə məhəl qoymur, israrla öz dediyinin arxasında durur.

İvan müharibənin yetişdirdiyi qəhrəmandır. Müharibəyə qədər rejissorun təsvir etdiyi İvanla müharibə ərəfəsindəki İvan arasında böyük fərq var. Deyib-gülən, əylənən İvanın müharibə zamanı siması qəzəb, gözləri nifrət saçır. Müharibənin yaratdığı İvan qəddardır, amansızdır, qisasçıdır, acımasızdır. Tarkovski İvanın timsalında müharibə uşaqlarının simasını yaradıb, kimsəsiz uşaqların sonrakı aqibətini, dağıdılmış ailələrin yaşadıqları mənəvi iztirabların ekran təcəssümünü verib. Rejissor müharibəyə sonsuz nifrətini kino dili ilə bəyan edərək, film boyu müharibənin baiskarlarına öz sənətkar lənətini yağdırır. Müharibə uşaqlarının daha tez böyüdüklərini və vaxtından əvvəl dünyayla vidalaşdıqlarını təsvir edir. Bu filmlə gözümüzün qarşısında "kimsəsizlərin naləsi" adlı ekran tablosunu yaradır.

Tarkovski 1966-cı ildə çəkdiyi "Andrey Rublyov"da isə həyata fərqli baxış sərgiləyir. Andrey Rublyov inanclı biridir. Dini əqidəsinə görə insan paklıq, təmizlik, ülvilik mərtəbəsinə yüksəlmək üçün dünya ləzzətlərindən tamamilə imtina etməlidir. Andrey Rublyov dünyəvi həzlərə aludəliyi qeyri-məqbul sayır, həyata qeyz və nifrətlə baxır, qadın nəvazişini rədd edir. O, dünya ləzzətlərinə aludə olmuş insanların mənəvi iztirablarını kənardan izlədikcə məyusluq məngənəsində əzilir. İnsanların mənəvi bəlalarını onların dünyapərəstlikləri ilə, miskinliyi və mənəvi kasadlığı ilə əlaqələndirir. Onun qəti inamına görə, insan mənən saflaşıb, Allaha yaxınlaşmazsa dünya fəlakətlərindən qurtula bilməz. Andrey nəinki sağlam, hətta ruhi xəstələrin də dünyadan kam almadıqlarına şahid olaraq, hər kəsdən uzaqlaşır və guşənişin olmaq qərarına gəlir. Andreyin daxilindəki "məni" onu yalnız Allaha qovuşmaqla rahatlıq tapdığına inandırır.

Tarkovski Andreyin nümunəsində fərdi sənətkar mövqeyini təqdim edir. O, Andreyin özünü yox, şəxsi mühakimələrini, düşüncə və həyata baxışını bəyənir.

Maraqlı fakt olaraq qeyd etmək lazımdır ki, Tarkovskinin filmlərində "qəhrəman" yoxdur. Bu filmlərdəki bədii obrazlar mənən şikəst, zəlil, əlil, aciz və qorxaqdırlar. Onlar yaşam mücadiləsi aparırlar. Tarkovskinin ekran mücahidləri həyatın anlamını dərk etməkdə aciz qalıb, hətta özlərinin varlıqlarının mahiyyətini anlamır, keçib getmiş günlərin nostaljisi ilə təsəlli tapırlar.

Rejissor uşaqlıq dönəmində öz bioqrafik təəssüratlarına, yaşadığı olaylara biganə qala bilmir, anasının çəkdiyi iztirablı günləri "Ayna" filmində əks etdirir. "Ayna" filminin qəhrəmanı Mariya onu atıb getmiş ərinin yolunu gözləyərək tez-tez keçmiş xatirələrə dalır, ərinin bir gün ona dönəcəyinə özünü inandırır. Tarkovski bu filmdə Mariyanın gənclik və yetkinlik dövrünü təsvir edərək, çəkdiyi mənəvi sarsıntıları filmin süjet xətti boyu inkişaf etdirməklə, kulminasiya nöqtəsində Mariyanı şəxsi iztirablarının sıxıntısına salır.

Mariyanın gözləri ərinin getdiyi yollara dikilib və o, həmin yolu gözündən qoymur. Mariya qorxur, düşünür ki, əgər baxışlarını başqa səmtə yönəltsə, arzularına, məqsədinə çatmayacaq. Əriylə görüş səhnəsində Mariya əsəbidir, qəzəblidir, kinayəli gülüşü ilə hər şeydə özünü günahkar sayır, axmaqlıq etdiyini anlayır. Mariya əri tərəfindən atılmış tənha qadındır, ancaq bunun fərqində deyil. Sevgisizliyin, qayğısızlığın qurbanı olsa da, ərinə xəyanət edəcəyindən qorxub, kimsəylə münasibət qurmağı ağlına belə gətirmir. Filmin sonuna kimi Mariya sevgisizliyin yaratdığı qadınla – özüylə mübarizə aparır. Mariya ərindən gördüyü biveclikə sonralar oğlunun timsalında üzləşir. Buna baxmayaraq, o öz doğma balasından da imtina etmədən, nəvəsinin əlindən tutaraq həmin yol boyu irəliyə doğru addımlayır.

Tarkovski ekranda kəşfiyyatçılıq etməyi sevirdi. İstər "Solyaris", istərsə də "Stalker"də bədii kinematoqrafik təxəyyülündən istifadə edərək, hadisələri qeyri-müəyyən məkanda verərək qəhrəmanlarını anlaşılmaz olayların içərisinə salır. "Solyaris"in baş verdiyi hadisələrin məkanı məchul, buradakı qəhrəmanların kimliyli və vəzifələri bizə məlum olsa da, onların gördükləri işin mahiyyəti anlaşılmazdır. Professor Kris Kelvin baş verən hadisələri öz gözüylə görmək üçün Solyarisə yollanır və gördüklərinə inanmır. Çünki orada məlum olmayan canlılar yaşayırlar və onların haradan peyda olduğunu heç kim müəyyənləşdirə bilmir. Kris Kelvin burada böyük əzmlə işə başlayanda vaxtilə dünyasını dəyişmiş sevdiyi qadının siması mistik bir varlığın obrazında peyda olur. O, gördüyü qadının xəyal olduğunu və öz həqiqi arvadı olmadığını bilsə də, "yatdığı" yuxudan ayılmaq istəmir. Solyarisdə olan Snaut və Sartorius onu bu istəyindən çəkindirməyə çalışsalar da, Kris Kelvin hissləri ilə bacarmır və sevdiyi qadının xəyalən də olsa onunla yaşamasını istəyir. Bununla belə, Kris Kelvin nə qədər çətin olsa da, xəyali varlıqdan qurtulmaq qərarına gəlir. Ancaq bu qərar ona mənəvi iztirablar bahasına başa gəlir. Kris arvadının yoxluğunda çəkdiyi mənəvi sarsıntılarla baş-başa qalarkən için-için ağlayır. Yaşadığı hadisələrin kökündə sevgisizliyin, çarəsizliyin, tənhalığın boy atdığını anlayır. Solyarisdən geri qayıdarkən Kris öz ata evinə, keçmişinə qayıdır. Ötən xoş günlərinin xəyalı ilə aramla məlum olmayan yönə üz tutaraq gedir.



Kris də Mariya kimi təkdir, ancaq sevgisinə sadiqdir, Kris köməksizdir, çünki onun maddi yox, mənəvi dəstəyə ehtiyacı var. Tarkovski insanların hansı məkanda olmalarından asılı olmayaraq mənəvi böhrandan qurtula bilmədiklərini göstərir. İnsan göyün yeddinci qatında da olsa, daxildən onu sıxıb-əzən hadisələrdən uzaqlaşması mümkün deyil. Filmin ali məqsədinə görə, insan özü-özünə kömək etməsə, başqasının dəstəyi ilə onun həyatı dəyişməyəcək.

Tarkovski "Stalker"də həbsdən qayıtmış bir insanı filmin mərkəzinə gətirir, onun xəyallarını həyata keçirtməsinə kömək etməyə çalışır. Rejissor öz ideya-bədii məqsədinə çatmaq üçün ekran qəhrəmanlarını bəlli olmayan məkana – "təhlükəli zona"ya salaraq onları müxtəlif çətin vəziyyətlərdə sınağa çəkir. Nəticədə qəhrəmanlar öz istəklərinə nail olmadan evlərinə əliboş geri dönüb, həmin zonaya getdiklərinə görə özlərini qınayırlar.

Hər üç qəhrəmanı – Stalker, professor və şairi getdikləri yolda məğlubiyyətə uğradarkən rejissorun başlıca məqsədi onları mənəvi dilemma qarşısında qoymaq idi. İnsan öz məqsədinə çatmadıqda ümidləri ölməlidirmi? Stalkerin ümidləri qətiyyən sınmır və o, filmin sonunda növbəti dəfə daha hazır və qətiyyətli addımlarla "zona"ya gedəcəyini, orada istədiyinə nail olduqdan sonra geri dönəcəyini arvadına söyləyir.

Tarkovskinin yaradıcılığı boyu sovet rejiminin müxtəlif inzibati təzyiqlərinə görə filmlərin ssenarisini dəfələrlə dəyişmək məcburiyyətində qalıb. Hətta elə hallar olub ki, ssenarinin ekranlaşdırılmasına icazə verilməyib.

Rejissorun ömrünün son illəri Avropada keçib. 1984-cü ildə yaradıcılıq işi ilə bağlı İtaliyaya gedən Tarkovski geri qayıtmamağı qərara alır. Milanda ona mənzil, fəxri vətəndaşlıq verilir. Buna rəğmən o, vətən həsrəti ilə yaşayır. Uşaqlıq dövrü əsasında "Ayna" filminin ssenarisini yazdığı kimi, qürbətdə çəkdiyi mənəvi böhranlarını "Nostalgiya" filmi vasitəsilə tamaşaçılara təqdim edir. Filmdə rus yazıçı Andrey Qorçakov İtaliyaya – XVIII əsrdə yaşayıb-yaratmış rus bəstəkarının sonrakı aqibəti ilə maraqlanmaq üçün – səfər edir. Bu səfər onun həyatında mənfi iz qoyur. Qorçakov İtaliyadan vətəninə geri qayıtmağa çalışsa da, uzun müddət öz istəyinə nail ola bilmir. İtaliyada qaldığı müddətdə Qorçakov daxilən sıxılır, xəyallara dalaraq ailəsini, yoldaşını, övladlarını görməyi arzulayır. Qürbətdə olarkən ailəsinin onun üçün nə qədər əziz və doğma olduğunu bir daha anlayır. Qorçakov qürbətdə yaşaya bilmir, hər şey onu darıxdırır, öz daxili sıxıntıları ilə mübarizə aparır, ancaq heç bir şey ona rahatlıq gətirmir.

Tarkovskinin çəkdiyi son film – "Qurbanvermə" (1986) onun digər filmlərindən tamamilə yeni baxış və həyata fərqli yanaşma ilə diqqət çəkir. Bu filmdə qəhrəman anlayışı daha ciddi və dəqiq düşünülmüş obrazın timsalında əksini tapır. Filmin qəhrəmanı Aleksandr ailəsiylə süfrə başında əyləşərək deyib-güldüyü yerdə televiziyada müharibənin başlayacağı xəbərini eşidirlər. Xəbərdən sarsılan Aleksandrın həyat yoldaşı huşunu itirir. Poçtalyon Otto Aleksandra tövsiyə edir ki, əgər o, cadugər Mariyayla yaxınlıq etsə, faciədən yayınacaqlar. Aleksandr Ottonun dediklərini edib ailəsinin yanına qayıtdıqda, Allaha verdiyi sözü xatırlayıb, vədinə xilaf çıxdığına görə peşman olur, ailəsini aldadaraq evdən çıxardıb, evinə od vurur. Evin yandığını görən ailə dəhşətlə baş verən hadisələrə baxdıqları zaman ekranda təcili yardım maşını və Aleksandrın cansız bədəninin həmin maşınla uzaqlaşdığını görürük.

Aleksandr öz ailəsini, sevdiklərini – insanları qurtarmaq üçün özünü qurban verməyi gözə alır. Rejissor onun timsalında hər şeyini sevdiklərinin yolunda qurban verməyə hazır olan qəhrəman obrazını ekrana gətirir.

Tarkovskinin pessimist düşüncələri onun bütün filmlərinin süjet xəttinə sirayət edib. Bu kədər tamaşaçıları üzsə də, eyni zamanda rejissor kinosevərləri gələcəyə ümid və inamla baxmağa istiqamətləndirir. Tarkovskinin qadın qəhrəmanları dəlisovdurlar. Onların yaşam mənası sevgi və qayğıdır. Bu qadınlar sevgisiz qaldıqda balıq kimi çabalayır, nəfəs almaqda çətinlik çəkirlər. Tarkovski qadınlara sevgiylə yanaşaraq, onları sevgidən məhrum edən kişilərə ikrahını açıq-aşkar bildirir.

O, bütün qəhrəmanlarına həssaslıqla yanaşır. İstər müsbət, istərsə də mənfi qəhrəmanlarının hallarına acıyır, onlara mümkün qədər kömək etmək istəyir. Amma bütün filmlərində qəhrəmanlar istədiklərinə nail ola bilmirlər. "İvanın uşaqlığında" filmin sonunda İvan güllələnir, "Andrey Rublyov"da qəhrəmanın arzuları həyata keçmir, "Solyaris"də Kris Kelvin arvadının ölümünü, ağır da olsa, qəbul edərək Solyarisdən əliboş geri qayıdır, "Ayna"da Mariya ərinə qovuşa bilmir, "Stalker"də Stalker kəşf etmək istədiyi ərazidə istədiyini gerçəkləşdirə bilmir, "Nostalgiya"da Qorçakov vətən sevgisiylə dünyasını dəyişir.

Tarkovski bir daha Rusiyaya qayıtmadan 1986-cı ilin dekabrında, 54 yaşında xərçəngdən dünyasını dəyişir. Rejissorun yarımçıq qalan yaradıcılıq planları qırılmış kino lenti kimi acı təəssüf doğurur...

**Tamilla Əliyeva**
**sənətşünas**

---

**Xatirə təqvimi** — **29 aprel – 2 may**

### Azərbaycan

**29 aprel 1919** – Kinorejissor, SSRİ Xalq artisti, Azərbaycanın və Türkmənistanın Əməkdar incəsənət xadimi Əjdər Mütəllim oğlu İbrahimov (1919 – 20.9.1993) anadan olub. "Bakı" kinostudiyasında, "Mosfilm"də işləyib. "Onun böyük ürəyi", "Ulduzlar sönmür", "Məhəbbətim mənim, kədərim mənim" və s. filmlərə quruluş verib.

**29 aprel 1941** – Azərbaycan KP MK-nın Büro iclasında Nizami Gəncəvinin anadan olmasının 800 illik yubileyinin keçirilməsi haqqında qərar (yubiley mərasimi 1941-ci il 16 oktyabr tarixinə təyin olunmuşdu) qəbul edilib.

**29 aprel 2000** – Prezident Heydər Əliyev Xalq şairi Rəsul Rzanın 90 illik yubileyinin keçirilməsi haqqında sərəncam imzalayıb.

**30 aprel 1880** – Xalq rəssamı Əzim Aslan oğlu Əzimzadə (1880 – 15.6.1943) Bakının Novxanı kəndində doğulub. 1906-cı ildən əsərləri "Molla Nəsrəddin" jurnalında dərc olunub. Milli təsviri sənətdə karikatura janrının, kitab qrafikası sənətinin (M.Ə.Sabirin "Hophopnamə" kitabına illüstrasiyalar, 1914) banisi sayılır.

**30 aprel 1920** – Əməkdar mədəniyyət işçisi, tarzən Kamil Əlisəftər oğlu Əhmədov (1920–1996) Bakıda anadan olub.

**30 aprel 1937** – Azərbaycan Dövlət Opera və Balet Teatrında dahi bəstəkar Üzeyir Hacıbəylinin "Koroğlu" operasının (librettonun müəllifləri Q.İsmayılov və M.S.Ordubadi) ilk tamaşası nümayiş olunub. Koroğlu rolunu SSRİ Xalq artisti Bülbül ifa edib.

**30 aprel 1946** – Əməkdar artist Xanlar Yunis oğlu Muradov (1946 – 5.2.2005) Bakının Qobu qəsəbəsində doğulub. Sumqayıt Musiqili Dram, Musiqili Komediya teatrlarında çalışıb, filmlərə çəkilib.

**1 may 1901** – Aşıq Bəhmən Göyçəli (Bəhmən İbrahim oğlu Qarayev; 1901-1976) anadan olub.

**1 may 1910** – Xalq artisti, müğənni Süreyya Sədrəddin qızı Qacar (1910-1992) Şuşada doğulub. Operalarda ("Leyli və Məcnun", "Aşıq Qərib" və s.) əsas partiyalarda çıxış edib.

**1 may 1928** – Əməkdar rəssam Tələt Ağalar oğlu Şıxəliyev (1928-1987) Masallı rayonunun Digah kəndində anadan olub. Yaradıcılığında portret janrı üstünlük təşkil edir.

**1 may 1934** – Yazıçı, dramaturq İsi Abbas oğlu Məlikzadə (1934 – 12.5.1995) Ağcabədi rayonunda anadan olub. Əsərləri və ssenariləri əsasında filmlər ("Qoca palıdın nağılı", "Kişi sözü", "Küçələrə su səpmişəm" və s.) çəkilib.

**1 may 1936** – Görkəmli dilçi alim, akademik Tofiq İsmayıl oğlu Hacıyev (1936 – 27.11.2015) Cəbrayıl rayonunun Soltanlı kəndində doğulub. AMEA-nın Nəsimi adına Dilçilik İnstitutunun direktoru olub.

**1 may 1941** – Xalq rəssamı Mayis Əlişir oğlu Ağabəyov (1941 – 17.6.2020) Bakıda anadan olub. 20-dən çox filmin quruluşçu rəssamıdır: "Babək", "Nizami", "Qətl günü", "Özgə vaxt" və s. Azərbaycan Dövlət Rəssamlıq Akademiyasının professorudur.

**1 may 1947** – Əməkdar incəsənət xadimi, bəstəkar Rauf Tofiq oğlu Əliyev (1947 – 14.6.2017) Şuşada anadan olub. Simfonik, instrumental və kamera əsərləri, filmlərə ("Yalan", "Fəryad") musiqi yazıb.

**1 may 1950** – Görkəmli yazıçı, dramaturq, publisist Məmməd Səid Ordubadi (24.3.1872 – 1950) vəfat edib. "Dumanlı Təbriz", "Qılınc və qələm", "Döyüşən şəhər" və s. romanları ilə Azərbaycan ədəbiyyatında tarixi roman janrının banisi sayılır.

**1 may 2002** – Prezident Heydər Əliyev görkəmli mədəniyyət xadimi, bəstəkar, SSRİ Xalq artisti Rauf Soltan oğlu Hacıyevin 80 illiyi haqqında sərəncam imzalayıb.

**2 may 1913** – Əməkdar artist Məmməd Əhməd oğlu Sadıqov (1913 – 28.5.1987) Bakıda doğulub. Akademik Dram Teatrının aktyoru olub, filmlərdə çəkilib.

**2 may 1916** – Əməkdar artist Ətayə Qulam qızı Əliyeva (1916 – 6.4.1995) Aşqabadda anadan olub. 1934-cü ildə Bakıya gələrək Teatr Texnikumuna daxil olub. İrəvan, Gəncə teatrlarında, Akademik Dram Teatrında çıxış edib. Çəkildiyi filmlər: "Onu bağışlamaq olarmı?", "Bizim küçə" və s.

**2 may 1916** – Əməkdar artist Mənsurə Vahab qızı Cəfərova (1916 – 20.3.1997) Bakıda doğulub. Gəncə Dövlət Dram Teatrının aktrisası olub.

**2 may 1927** – Azərbaycanın ilk peşəkar hərbi dirijoru, sənətşünaslıq namizədi Niyazi Əhməd oğlu Kərimov (1927-2003) Qəbələ şəhərində anadan olub.

**2 may 1929** – Dilçi və ədəbiyyatşünas, Əməkdar elm xadimi Yusif Mirəhməd oğlu Seyidov (1929-2013) Naxçıvan MR Şərur rayonunun Yengicə kəndində anadan olub.

**2 may 1939** – Xalq artisti, sənətşünaslıq doktoru, professor Ramiz Fərzulla oğlu Zöhrabov (1939 – 24.4.2017) Bakıda doğulub. Muğamların tarixi və nəzəri problemlərinə dair kitabların müəllifidir. Azərbaycan Bəstəkarlar İttifaqının katibi olub.

### Dünya

**29 aprel 1727** – Fransız baletmeysteri, müasir dünya baletinin nəzəriyyəçisi Jan-Jorje Nover (Jean-Georges Noverre; 1727–1810) anadan olub. Onun xatirəsinə ehtiram olaraq 29 aprel Beynəlxalq Rəqs Günü kimi (1982-ci ildə UNESCO-nun Beynəlxalq Rəqs Şurası tərəfindən təsis edilib) qeyd olunur.

**29 aprel 1907** – Amerika rejissoru, 4 dəfə "Oskar" mükafatçısı Fred Sinneman (Fred Zinnemann; 1907-1997) anadan olub.

**30 aprel 1870** – Avstriya-macar bəstəkarı və dirijoru Frans (Franz) Lehar (1870-1948) anadan olub. "Şən dul qadın", "Qaraçı məhəbbəti", "Torağaylar oxuyan yerdə" operettalarının müəllifidir.

**30 aprel 1883** – Çex satirik yazıçısı və dramaturqu Yaroslav Haşek (1883-1923) anadan olub. "Əsgər Şveykin sərgüzəştləri" romanı ilə məşhurlaşıb. "Əcnəbilər üçün gid", "Mənim it alverim" hekayələr toplusunun müəllifidir.

**1 may 1881** – Fransız filosofu, antropoloq və paleontoloq Teyar de Şarden (Pierre Teilhard de Chardin; 1881-1955) anadan olub. Əsərləri: "Bəşəri mühit", "İnsan fenomeni".

**1 may 1924** – Rus yazıçısı Viktor Astafyev (1924-2001) anadan olub. Əsərləri: "Çar-balıq", "Qəmli detektiv", "Lənətlənmiş və öldürülmüşlər" və s.

**1 may 1924** – Gürcü aktyoru və rejissoru David Abaşidze (1924-1990) anadan olub. Filmləri: "Qəm yemə", "Pirosmani", "Veri məhəlləsinin melodiyası".

**2 may 1903** – Özbək kinosunun yaradıcılarından biri, SSRİ Xalq artisti Kamil Yarmatov (1903-1959) anadan olub. "Əlişir Nəvai", "İbn Sina" filmlərinə quruluş verib.

**2 may 1911** – Tacikistanın Xalq şairi Mirzo Tursunzadə (1911-1977) anadan olub. Əsərlərini tacik və rus dillərində yazıb.

**Hazırladı: V.Orxan**

---

## Gənclər Kitabxanasında Mir Cəlal haqqında silsilə materiallar hazırlanıb

Cəfər Cabbarlı adına Respublika Gənclər Kitabxanasında görkəmli ədəbiyyatşünas alim, yazıçı, pedaqoq Mir Cəlal Paşayevin (1908-1978) anadan olmasının 115-ci ildönümü münasibətilə silsilə materiallar – virtual kitab sərgisi və "Bir ömrün manifesti" adlı videomaterial hazırlanıb. Materiallarda Mir Cəlalın həyat və bədii yaradıcılığına, pedaqoji və alimlik fəaliyyətinə geniş yer verilib, maraqlı məlumatlar təqdim olunub.

"Bir ömrün manifesti" adlı videomaterialda Mir Cəlal Paşayevin elmi fəaliyyətində xüsusi yer tutan "Füzulinin poetik xüsusiyyətləri" və "Füzuli sənətkarlığı" fundamental əsərləri haqqında məlumatlar əks olunub. Bundan əlavə, ədibin "Dirilən adam", "Bir gəncin manifesti", "Açıq kitab" romanları haqqında da məlumatlar verilib. Həmçinin Mir Cəlalın həyatı ilə bağlı foto və video görüntülər təqdim olunur.

"Mir Cəlal Paşayev – 115" adlı virtual kitab sərgisində isə görkəmli alim və yazıçının həyat və yaradıcılığının əsas tarixləri, tanınmış şəxslərin onun yaradıcılığı ilə bağlı söylədikləri fikirlər, ədib haqqında yazılan "Mir Cəlalın ədəbi ideyaları", "Mir Cəlal Paşayev. Biblioqrafiya", "Sadəlik və müdriklik", "Mir Cəlal xatirələrdə" və s. kitabların, ədibin özünün müəllifi olduğu "Bir gəncin manifesti", "Dirilən adam", "Füzuli sənətkarlığı" və başqa kitabların biblioqrafik təsviri yer alıb.

# “Sürrealizm mənəm”

## Heydər Əliyev Mərkəzində Salvador Dalinin əsərləri sərgilənir



Aprelin 26-da Heydər Əliyev Mərkəzində XX əsr incəsənətinin ən məşhur simalarından biri – ispaniyalı rəssam, sürrealist rəngkar, qrafik, heykəltəraş, rejissor Salvador Dalinin (1904-1989) əsərlərindən ibarət “Sürrealizm mənəm” adlı sərgi açılıb.

Salvador Dalinin Azərbaycanda ilk dəfə təqdim olunan əsərləri sırasında rəssamın qrafik əsərləri, şüşədən və bürüncdən hazırlanan heykəltəraşlıq nümunələri, eləcə də “canlı kətan”ları xatırladan multimedia yer alıb. Heydər Əliyev Mərkəzində nümayiş olunan əsərlər dünyada Salvador Dalinin işlərindən ibarət ən böyük kolleksiyalardan biridir. Unikal layihə ziyarətçiləri rəssamın dünyasına aparır. Həmin obrazların “canlandığı” multimedia zonası Salvador Dali dünyasını daha dərindən hiss etdirir.

Sərgi “Synergy Partnership” şirkəti və Rusiyanın “PS Gallery” qalereyasının təşəbbüsü ilə keçirilir.

Açılış mərasimində “Synergy Partnership”in direktoru Rüfət Abbasov bildirib ki, XXI əsrin ən möhtəşəm memarlıq nümunələrindən olan Heydər Əliyev Mərkəzində ötən əsrin dahi rəssamı Salvador Dalinin sərgisinin təşkili əlamətdar mədəni layihədir: “Salvador Dali bir çox insanın incəsənətə baxışını dəyişən sürrealizm hərəkatının parlaq nümayəndəsidir. Əminik ki, burada nümayiş olunan əsərlər ziyarətçiləri Salvador Dalinin daxili dünyasına səyahət etməyə imkan verəcək”.






Bakının hər zaman ən mühüm mədəniyyət mərkəzlərindən biri olduğunu söyləyən “PS Gallery”nin təsisçisi, kolleksiyaçı Pavel Başmakov deyib: “Burada mədəniyyəti şaxələndirən, onu ucalara qaldıran, öz şəhərinin şan-şöhrətini tərənnüm edən bir çox şəxsiyyətlər yaşayıb. Dahi ispan sürrealist-rəssam Salvador Daliyə ithaf olunmuş sərginin məhz Bakı şəhərində açılışını etməkdən olduqca məmnunam. Bu il Heydər Əliyevin 100 illiyi qeyd olunur. Bu, bizim belə bir əlamətdar ildə Azərbaycan xalqına hədiyyəmizdir”.

Sərginin əlamətdar hissəsindən biri də şüşədən hazırlanan sürrealist obyektlərin və rəssamın fotolarının nümayişidir. Dalinin fırçasından çıxan hər bir əsər təkcə qrafika sənətinin şah əsəri, yeniliyin təzahürü və təkrarolunmaz müəllif yanaşması deyil, həm də bütöv bir hekayədir.

Qeyd edək ki, vaxtilə Salvador Dali İtaliya hökumətindən Dante Aligyerinin məşhur “İlahi komediya”sına illüstrasiyalar üçün sifariş almışdı. İtalyan şairin əsərinə illüstrasiyanın ispaniyalı rəssam tərəfindən qələmə alınacağından xəbər tutan İtaliya cəmiyyəti buna etiraz etdiyindən sifariş sonradan ləğv olunmuşdu.



Lakin uşaqlıqdan Dante əsərlərinin vurğunu olan Dali işini dayandırmır. Həmin iş 10 il ərzində davam edir və bu müddətdə rəssam 3500 nümunə yaradır, bu isə öz növbəsində qeyri-adi rəsm effektinə nail olmağa imkan verir.

Unikal istedada malik Salvador Dalinin dünyaya baxışı fərqli olub, məkan, forma və rənglə eksperimentləri sevib. Dalinin yaratdığı əsərlər surrealizm üslubundadır, rəssam incəsənətin bu istiqamətinin ən məşhur simalarından biridir. Onun dünyanın ən böyük muzeylərində saxlanılan əsərləri sürrealizmin klassikası sayılır.

Heydər Əliyev Mərkəzində “Sürrealizm mənəm” sərgisi oktyabrın 8-dək davam edəcək.

# Bakıdan Vyanaya birbaşa aviareyslərə start verilir

Mayın 2-dən etibarən Bakı-Vyana-Bakı birbaşa uçuşları başlanacaq. Həftədə iki dəfə olmaqla çərşənbə axşamı və cümə günləri həyata keçirilməsi planlaşdırılan uçuşlar “Azərbaycan Hava Yolları” (AZAL) tərəfindən icra ediləcək.




Bu münasibətlə Dövlət Turizm Agentliyi (DTA) və Azərbaycanın Avstriyadakı Səfirliyinin təşkilatçılığı ilə aprelin 24-də Vyanada təqdimat tədbiri keçirilib.

DTA-nın sədri Fuad Nağıyev Bakı-Vyana-Bakı reyslərinin qarşılıqlı turist mübadiləsinə də töhfə verəcəyini, Azərbaycanı avropalı turistlər üçün daha əlçatan edəcəyini qeyd edib. Fuad Nağıyev Azərbaycanın turizm destinasiyası kimi tanıdılmsı məqsədilə genişmiqyaslı tədbirlərin görüldüyünü diqqətə çatdıraraq pandemiyadan sonrakı bərpa prosesində Avropadan gələn turist sayının artacağına inamını ifadə edib.

Azərbaycanın Avstriyadakı səfiri Rövşən Sadıqbəyli, Avstriya Federal Əmək və İqtisadiyyat Nazirliyinin turizm üzrə dövlət katibi Suzanne Kraus-Vinkler, AZAL-ın birinci vitse-prezidenti Samir Rzayev də birbaşa hava uçuşlarının turizm sahəsinə və ümumilikdə iki ölkə arasında iqtisadi əlaqələrə töhfə olacağını qeyd ediblər.

Azərbaycan Turizm Bürosunun baş icraçı direktoru Florian Zenqstşmid ölkəmizin turizm potensialı haqqında təqdimatla çıxış edib. O, Vyanadan Bakıya birbaşa uçuşların yalnız Avstriya ilə deyil, Almaniya və İsveçrə kimi hədəf ölkələrlə də turizm əlaqələrinin genişlənməsinə müsbət təsir edəcəyini bildirib.

Avstriyanın rəsmiləri, turizm sənayesi nümayəndələri, Avstriya və Slovakiyadan media nümayəndələrinin iştirak etdiyi tədbirdə Azərbaycanın milli mətbəx nümunələri və şərabçılıq məhsulları təqdim olunub, incəsənət ustalarının iştirakı ilə mədəni proqram təşkil edilib.




Olaylar, faktlar
(28 aprel – 1 may)

### 316 il əvvəl...

**1 may 1707-ci ildə** Şotlandiya ilə İngiltərənin birləşməsinə dair “İttifaq aktı” bağlanıb. İngiltərə XIII əsrdən Şotlandiyanı özünə birləşdirmək üçün müharibələr aparırdı. XVII əsrdə İngiltərə taxt-tacında şotland əsilli Stüartların əyləşməsindən sonra birləşmə mümkün oldu.

### 234 il əvvəl...



**30 aprel 1789-cu ildə** ABŞ-da prezidentlik institutu fəaliyyətə başlayıb, 1-ci prezident Corc Vaşinqtonun inauqurasiya mərasimi keçirilib. O vaxt ABŞ-nin paytaxtı Nyu-York şəhəri idi və prezidentin iqamətgahı burada yerləşirdi.

### 134 il əvvəl...

**1 may 1889-cu ildə** Parisdə II İnternasionalın konqresində 1 mayın “Dünya zəhmətkeşlərinin həmrəyliyi günü” kimi qeyd olunması barədə qərar qəbul edilib. Qərar 1886-cı ilin mayında ABŞ-nin Çikaqo şəhərində 8 saatlıq iş günü tələbi ilə etiraz aksiyası keçirən və buna görə güllələnən fəhlələrin xatirəsinə həsr olunmuşdu.

### 105 il əvvəl...

**29 aprel 1918-ci ildə** erməni-daşnak dəstələri Gümrü şəhəri yaxınlığında azərbaycanlı əhaliyə qarşı kütləvi qırğın törədiblər. Yüzlərlə insan qətlə yetirilib.

**1 may 1918-ci ildə** “Bakı Komissarları Soveti”nin qoşunları Qubaya hücum edib. Amazaspın başçılıq etdiyi dəstələr qırğınlara başlayıb. Quba bölgəsində ümumilikdə 3 minədək insan qətlə yetirilib.

### 103 il əvvəl...

**28 aprel 1920-ci ildə** Azərbaycan Xalq Cümhuriyyəti süqut edib, Azərbaycan Sovet Sosialist Respublikasının yaradıldığı elan olunub. Bir gün öncə bolşevik Rusiyasının 11-ci ordusu Bakıya daxil olmuş, Azərbaycan K(b)P MK və Rusiya K(b)P Qafqaz Diyar Komitəsinin Bakı Bürosu hakimiyyəti təhvil vermək barədə Cümhuriyyət Parlamentinə ultimatum vermişdi. Parlament gərgin müzakirələrdən sonra ultimatumu qəbul etmişdi. Ölkədə formal hakimiyyət azərbaycanlı kommunistlərdən ibarət Müvəqqəti İnqilab Komitəsinə (sədr – Nəriman Nərimanov) verilib.

### 100 il əvvəl...

**28 aprel 1923-cü ildə** Bakıda Azərbaycan Foto-Kino İdarəsinin nəzdində 1-ci Dövlət kinofabrikinin (indiki “Azərbaycanfilm” kinostudiyası) rəsmi açılışı keçirilib. Sonrakı illərdə kinostudiya müxtəlif adlar altında (Azdövlətkino, Azərkino, Azərfilm, Bakı kinostudiyası) fəaliyyət göstərib, 1960-cı ildən Cəfər Cabbarlı adına “Azərbaycanfilm” kinostudiyası adlanır.

### 78 il əvvəl...

**30 aprel 1945-ci ildə** İkinci Dünya müharibəsində Berlində faşist Almaniyasına qarşı son döyüş – Reyxstaqa hücum başlayıb. Adolf Hitler bir gün öncə rəsmi nikaha girdiyi Yeva Braunla intihar edib və iflas etmiş Almaniyanın idarəçiliyini admiral Karl Dönitzin başçılığı ilə müvəqqəti hökumətə vəsiyyət edib.

### 59 il əvvəl...




**1 may 1964-cü ildə** Türkiyədə qəbul olunan xüsusi qanunla dövlət radio və televiziya qurumu – TRT yaradılıb. Ölkənin ayrı-ayrı şəhərlərində radio yayımı 20-ci illərin sonu – 30-cu illərdə başlamışdı. 1965-ci ildən TRT bütün ölkəni əhatə edən proqramlı yayıma keçib. 1968-ci ildə TRT-nin televiziya yayımı başlanıb. 1986-cı ilədək TRT 1 ölkənin yeganə telekanalı olub.

### 48 il əvvəl...

**30 aprel 1975-ci ildə** Cənubi Vyetnam Amerika işğalından qurtulub və ölkənin şimalı ilə birləşib. 1965-ci ildə ABŞ Cənubi Vyetnama hərbi kontingent yeritmişdi. 1973-cü ildə Amerika qoşunlarının ölkədən çıxarılması barədə Parisdə müqavilə imzalandı. 1975-ci ilin aprelində ABŞ-nin sonuncu hərbi dəstəsi Cənubi Vyetnamı tərk etdi. 30 aprel Vyetnamda dövlət bayramı – Qələbə günü kimi qeyd olunur.

**Hazırladı: V.Orxan**

# Avstriya paytaxtında azərbaycanlı vokalçının konserti

Vyanadakı Azərbaycan Mədəniyyət Mərkəzində (AMM) gənc opera müğənnisi Məryəm Hacıyevanın solo konserti təşkil olunub.



AMM-in rəhbəri Leyla Qasımova qonaqları salamlayaraq bildirib ki, mərkəz fəaliyyətində azərbaycanlı gənc istedadların üzə çıxması və tanıdılmasına da xüsusi diqqət ayırır. Qeyd edib ki, Məryəm Hacıyeva Azərbaycanda doğulub, yeddi yaşında ailəsi ilə birlikdə İsrailə köçüb, orada musiqi təhsili alıb və bir neçə ildir Avstriyada yaşayır.

Konsertdə Məryəm Hacıyeva bəstəkarlar Üzeyir Hacıbəyli, Niyazi, Asəf Zeynallı, Tofiq Quliyev, eləcə də Volfqanq Amadey Motsart və Cüzeppe Verdinin əsərlərindən parçalar, operalardan ariyalar və mahnılar ifa edib. Onu fortepianoda müşayiət edən Yoanna Soxatska həmçinin Frederik Şopen, Sergey Raxmaninov, Anna Babilova və digər bəstəkarların fortepiano üçün əsərlərini də səsləndirib.

# İspaniyada Sezara həsr olunmuş qədim Roma teatrı bərpa edilir

İspaniyanın cənub-şərqində, İberiyada qədim Kartaxena şəhərinin əsası eramızdan əvvəl 227-ci ildə qoyulub. Aralıq dənizi sahilindəki şəhər Roma imperatorluğunun dövlət və hərbi xadimi Stsipion tərəfindən salınıb.

Tədqiqatçılar qrupu Mursiya muxtar icması ərazisində yerləşən Kartaxenada qədim Roma teatrının dəhlizini bəzəyən divar rəsminin fraqmentlərinə rast gəliblər.

Eramızdan əvvəl V-I əsrlər arasında qədim romalılar burada kütləvi tamaşalar və mərasimlər üçün 7 min tamaşaçı üçün monumental teatr tikiblər. Teatr imperator Oktavian Avqustun nəvələri Qay Sezar və Lutsi Sezara həsr edilib.

Teatrın özü 1988-ci ildə Regional Sənətkarlıq Mərkəzinin tikintisi zamanı aşkar olunub. Sonradan burada arxeoloji tədqiqatlar başlanıb və tikilinin bərpa edilərək açıq səma altında muzeyə çevrilməsinə qərar verilib.

Bu yaxınlarda tədqiqatçılar qrupu tərəfindən böyük divar rəsminin 2 mindən çox fraqmenti tapılıb. Əvvəllər aşkar edilmiş 1500 fraqmentə yeni elementlər əlavə olunub ki, bu da tədqiqatçılara rəsmin orijinal formasına qaytarılması prosesini daha dəqiqliklə davam etdirməyə imkan verib.

Bərpa prosesi hələ ilkin mərhələdədir, lakin rəsmdə bədii xüsusiyyətlərə əlavə olaraq Roma fiqurları da görünməyə başlayır.

# Kann festivalı poster siması üçün yenə Katerin Denevi seçib

Dünyanın ən böyük kino müsabiqələrindən biri olan Kann Film Festivalı bu il mayın 16-dan 27-dək keçiriləcək. Hər il festivalın proqram və iştirakçıları ilə yanaşı tematikası ilə fərqlənən posterləri də maraq doğurur.

76-cı Kann Film Festivalının posteri üçün təşkilatçılar yenidən məşhur fransız aktrisası Katerin Denevi (Catherine Deneuve) seçiblər. O, ən populyar vaxtlarında da festivalın poster simalarından olub.

Budəfəki ağ-qara poster rejissor Alen Kavalyenin “La Chamade” (“Təlaş”) filminin (1968) çəkiliş meydançasında Cek Qarofalonun çəkdiyi foto əsasında hazırlanıb. Fransuaza Saqanın romanı əsasında çəkilmiş filmdə baş rolu oynamış ünlü aktrisanın bu il 80 yaşı tamam olur. Sonuncu dəfə 2020-ci ildə kinokamera qarşısına çıxan aktrisa “Məndən sonra” filminin çəkilişi zamanı insult keçirib.

Katerin Denev Kann Film Festivalında uzun müddət iştirak edib, 1994-cü ildə Klint İstvudun sədrlik etdiyi münsiflər heyətinin üzvü olub. Bu il isə onun qızı Çiara Mastroianni festivalın aparıcısı olacaq.

76-cı Kann Film Festivalında bir çox kino ulduzları iştirak edəcəklər. “Çiçək ayın qatilləri” filmini festivala gətirən amerikalı rejissor Martin Skorseze, eləcə də aktyorlar Leonardo Di Kaprio, Robert de Niro, Tom Kruz və Harrison Ford onların arasında olacaqlar. Bir qədər əvvəl məişət zorakılığı ittihamları ilə məhkəmə qarşısına çıxan və sonda məhkəməni udan fransız aktyoru Coni Deppin də festivalda olacağı bildirilir. İspan rejissor Pedro Almodovarın yeni qısametrajlı filmi – “Qəribə həyat tərzi”nin dünya premyerası da Kannda olacaq.

**V.Kamal**

Quba rayon Mərkəzləşdirilmiş Kitabxana Sisteminin direktoru Saməddin Nəsirov və kitabxananın kollektivi iş yoldaşları Bilqeyis Məmmədovaya atası

**Məmmədrza Salmanovun**

vəfatı ilə əlaqədar kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

**Allah rəhmət eləsin.**

Azərbaycan Respublikası Mədəniyyət Nazirliyinin nəşri

MƏDƏNİYYƏT

Qəzet 1991-ci ilin yanvarından çıxır

**Baş redaktor:** Vüqar Əliyev

**Ünvan:** AZ 1012, Bakı şəhəri, Moskva prospekti 1D
Dövlət Film Fondu, 5-ci mərtəbə

**Telefon:** (012) 431-28-79 (baş redaktorun müavini)
431-57-72 (redaktor)
430-16-79 (müxbirlər)
530-34-38 (mühasibatlıq, yayım)
**E-mail:** qazet@medeniyyet.az
**Lisenziya №** AB 022279. **İndeks:** 0187. **Qiymәti:** 60 qәpik

“Mədəniyyət” qəzetinin kompüter mərkəzində səhifələnib, “Azərbaycan” nəşriyyatında çap olunub.
**Tiraj:** 5050. **Sifariş:** 1061
**Buraxılışa məsul:** Fariz Yunisli

Yazılardakı faktlara görə müəlliflər cavabdehdir.
Qəzetdə AZƏRTAC-ın materiallarından da istifadə edilir.

**Bank rekvizitləri:**
Kapitalbank 1 saylı Yasamal filialı
**Kod:** 200037. **VÖEN:** 9900003611. **SWIFT:** AIIBAZ2XXXX
**Müxbir hesab:** AZ37NABZ01350100000000001944

MADANIYYAT QAZETI REDAKSIYASI
**H/Hesab:** AZ98AIIB33080019443300232103. **VÖEN:** 1300338641